QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 130 (5118) **22 iyul** 2016-cı il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq imkanları genişlənir

*Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın təhsil, universitetlər və tədqiqat nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

4

**Azərbaycanda möhkəm ictimai-siyasi sabitlik mövcuddur, dövlətimizvə cəmiyyətimiz inkişafa köklənib**



2

**"The Daily Caller": Azərbaycan vacib beynəlxalq geosiyasi əhəmiyyətə malikdir**



7

**Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılıb**



# Azərbaycan ilə İtaliya arasında strateji tərəfdaşlıq imkanları genişlənir

## *Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın təhsil, universitetlər və tədqiqat nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də İtaliya Respublikasının təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Gianninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı İtaliyanın təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Gianninin ölkəmizə səfərinin maraqlı keçəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan ilə İtaliya arasında müxtəlif sahələrdə çox yaxşı münasibətlərin olduğunu vurğulayan Prezident İlham Əliyev təhsil sahəsində də güclü tərəfdaşlıq əlaqələrinin yaradılacağına əminliyini ifadə etdi. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında strateji tərəfdaşlıq haqqında qəbul olunmuş Birgə Bəyannamənin rolunu qeyd etdi. Azərbaycanlı tələbələrin İtaliyada təhsil almalarının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev bunu ölkələrimiz arasında dostluğun yaxşı nümunəsi kimi dəyərləndirdi.***

İtaliya Respublikasının təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Giannini ölkəsinin Azərbaycanın təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu dedi. Azərbaycanlı tələbələrin İtaliyada təhsilinə toxunan qonaq tələbələrin sayının getdikcə artmasının əhəmiyyətini qeyd etdi. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ilə birinci Avropa Oyunlarının Romada təqdimatı zamanı görüşdüyünü məmnunluqla vurğulayan xanım Stefania Giannini görüş zamanı mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı səmərəli müzakirələr apardıqlarını dedi. İtaliyalı nazir Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun dəstəyi ilə İtaliyada, Vatikanda əhəmiyyətli layihələr həyata keçirməsinin önəmini də vurğuladı.

# "The Daily Caller": Azərbaycan vacib beynəlxalq geosiyasi əhəmiyyətə malikdir

***ABŞ-ın "The Daily Caller" nəşrində Azərbaycanın ABŞ və NATO üçün strateji önəmindən bəhs edən məqalə dərc olunub. Məqalədə Azərbaycanın vacib beynəlxalq geosiyasi əhəmiyyətə malik ölkə olduğu vurğulanır. AZƏRTAC xəbər verir ki, yazıda Prezident İlham Əliyevin NATO-nun Varşavada keçirilən Sammitində iştirakının Azərbaycanın önəmli ölkə olduğunu bir daha sübut etdiyi bildirilir.***




Azərbaycanın Əfqanıstanda aparılan əməliyyatlarda NATO-ya və ABŞ-a göstərdiyi kömək oxucuların diqqətinə çatdırılır. Rəsmi Bakının Əfqanıstandakı əməliyyatların ilk günündən Azərbaycan üzərindən daşımaların həyata keçirilməsinə icazə verdiyi vurğulanır. Qeyd edilir ki, NATO və Birləşmiş Ştatlar da Azərbaycanın strateji və olduqca əlverişli coğrafi mövqeyə malik olduğunu bilir. Varşava Sammitində Diplomatik və Strateji Araşdırmalar Mərkəzinin eksperti Naciyə Selin Senocak bildirib ki, Azərbaycan NATO üçün önəmini Əfqanıstanda və Kosovoda sübut edib. Müəllif Azərbaycanın ərazisinin beşdəbir hissəsinin Ermənistan tərəfindən işğal edildiyini diqqətə çatdırır. Qeyd edir ki, BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməyə qəbul etməsinə baxmayaraq, bu problem hələ də həll olunmayıb.

Amerikalı oxuculara Xocalı soyqırımı barədə də məlumat verilir, 1992-ci ilin fevral ayında Azərbaycanın Xocalı şəhərində 600-dən çox qadın, kişi və uşağın qətlə yetirildiyi diqqətə çatdırılır. Bildirilir ki, Ermənistanın işğalçılıq siyasətinin mərkəzində Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ayrılaraq Ermənistana birləşdirilməsi durur. ABŞ bilir ki, 1994-cü ildə atəşkəs əldə olunana qədər 20 min azərbaycanlı Ermənistanla münaqişə nəticəsində qətlə yetirilib və bir milyon azərbaycanlı zorla öz evlərindən qovulub. Aprel ayında hərbi əməliyyatlar bütünlüklə Azərbaycan ərazisində baş verib. "Azadlıq" radiosunun müşahidəçiləri açıq şəkildə bildiriblər ki, aprel ayında baş vermiş hərbi əməliyyatları Ermənistan əsgərləri və Ermənistan tərəfindən dəstəklənən separatçı əsgərlər təhrik ediblər. İşğala və Xocalıda etnik təmizləməyə məruz qaldıqlarına görə azərbaycanlıların münaqişənin həlli ilə bağlı danışıqlarda əsasları, mənəvi üstünlükləri var. Dağlıq Qarabağ separatçıları özlərini müstəqil elan etsələr də heç bir ölkə bunu qəbul etmir. Müəllif vurğulayır ki, ABŞ, NATO və bütün Avropa ölkələri Azərbaycanı bu münaqişənin həllində dəstəkləməlidirlər, çünki tarix bu dəstəyi diktə edir. NATO-nun gücü əhəmiyyətli şəkildə Azərbaycan vasitəsilə artırıla bilər. Azərbaycanın Qərb üçün əhəmiyyəti regionun ABŞ və NATO tərəfindən təsəvvür edilən gələcəyində mərkəzi rol oynaya bilər.



# Londonda "Har Hazeitim" Komitəsinin təqdimat mərasimi olub

*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mərasimdə iştirak edib*

***Böyük Britaniya parlamentinin İcmalar Palatasında "Har Hazeitim" adlı tarixi qəbiristanlıq və məkanın qorunması üzrə komitənin təqdimat mərasimi keçirilib. Şərqi Qüdsdə yerləşən ən qədim yəhudi qəbiristanlığı hesab olunan "Har Hazeitim"in Mühafizəsi üzrə Beynəlxalq Komitənin tərkibində təsis edilən bu qurumun təqdimat mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.***

Azərbaycanın Böyük Britaniyadakı səfiri Tahir Tağızadə, parlamentin üzvü Metyu Offord, Qüds şəhərinin merinin birinci müavini Ravvi Yosef Doyç, Yuqoslaviya kral ailəsinin üzvü, taxt-tacın varisinin həyat yoldaşı şahzadə Katerin, yəhudi icmasının rəhbərləri, qeyri-hökumət təşkilatlarının və dini tolerantlıq sahəsində fəaliyyət göstərən qurumların nümayəndələri də tədbirə qatılıblar.

Tədbirdə Azərbaycanın dini tolerantlıq və dözümlülük sahəsində əldə etdiyi nailiyyətlər yüksək qiymətləndirilib, xüsusilə ölkəmizdə yəhudi icmasına göstərilən diqqət və qayğı vurğulanıb. Səfir T.Tağızadə Azərbaycanda mədəni müxtəlifliyin tarixi, fərqli dini və etnik icmaların ahəngdar birgəyaşayışı haqqında məlumat verib. O, Azərbaycanda yəhudi icmasının əsrlərdən bəri sülh və əmin-amanlıq şəraitində yaşadığını diqqətə çatdırıb. Azərbaycanın antisemitizmin heç bir təzahürünə rast gəlinməyən nadir ölkələrdən olduğunu qeyd edən səfir multikultural yaşayış tərzinin dövlət tərəfindən dəstəkləndiyini, Prezident İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etdiyini vurğulayıb.

Diplomat tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın iştirak etdiyini söyləyib, Fondun istər ölkə daxilində, istərsə də xaricdə həyata keçirdiyi layihələrdən bəhs edib. Səfir, həmçinin Heydər Əliyev Fondunun multikulturalizm, mədəni irsin mühafizəsi və dini dözümlülük sahəsində reallaşdırdığı layihələr barədə məlumat verib.

# Səfir: Azərbaycan hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Türkiyənin yanında oldu



Türkiyənin Azərbaycandakı səfiri İsmayıl Alper Coşqun iyulun 15-də ölkəsində baş vermiş dövlət çevrilişinə cəhdlə bağlı mətbuat konfransı keçirib. Səfir deyib ki, dövlət çevrilişinə cəhd edən terrorçular Türkiyə xalqının sərt müqaviməti ilə üzləşdi. Xalq meydanlara axışaraq mövqeni nümayiş etdirdi, siyasi partiyalar da dövlətin yanında oldu. Beləliklə, Türkiyədə demokratiya qələbə qazandı.

Diplomat Azərbaycanın hər zaman olduğu kimi, 15 iyul hadisələri zamanı da Türkiyənin yanında olduğunu vurğulayıb və buna görə xalqımıza, xüsusilə Prezident İlham Əliyevə təşəkkür edib. "15 iyul gecəsindən bəri göstərdikləri həmrəylik üçün bütün azərbaycanlı qardaşlarımıza minnətdarlığımı bildirirəm", - deyə səfir vurğulayıb. İsmayıl Alper Coşqun təəssüflə qeyd edib ki, bəzi ölkələrdə Türkiyədəki hadisələrlə bağlı dezinformasiya hallarına da rast gəlinib. O bildirib ki, Türkiyə 80 milyon vətəndaşı, qanuni dövlət qurumları ilə dimdik ayaqdadır. Heç kimin bununla bağlı tərəddüdü olmasın. Bu hadisələrdən sonra Türkiyənin zəifləyə biləcəyini fikirləşən düşmənlərimiz yanılırlar.

Səfir çevriliş cəhdinin Türkiyə Silahlı Qüvvələrinin əmr-komandanlıq sistemi daxilində baş vermədiyini vurğulayıb. O deyib ki, bu, ordu tərkibindəki kiçik qrupun təşəbbüsü olub və onlar qanuna müvafiq şəkildə cəzalandırılacaqlar. Türkiyənin terrorla mübarizədə böyük təcrübəyə malik olduğunu vurğulayan diplomat həmin terror qruplarından birinin də Fətullahçı Terror Təşkilatı - FETÖ olduğunu bildirib: "15 iyul çevriliş cəhdi bu terror təşkilatının indiyə qədər bildiyimiz terror fəaliyyətinin zirvəsini təşkil edir. Hazırda onların təmizlənməsi davam etdirilir. Bu qruplaşmanın təkcə Türkiyə daxilində deyil, həm də ölkə xaricindəki strukturlarına qarşı mübarizəmizi davam etdiririk".

Diqqətə çatdırılıb ki, hadisə nəticəsində 240-dan çox insan şəhid olub, 1500-dən çox yaralı var, 104 qiyamçı öldürülüb. Dövlət qurumlarından 60 min nəfər işdən çıxarılıb, 6823 şəxs saxlanılıb, onlardan 1400-ü həbs edilib. Bütün araşdırmalar hüquq müstəvisində aparılır. Qeyd edilib ki, iyulun 20-də Türkiyə Nazirlər Kabinetinin toplantısından sonra ölkədə 3 ay fövqəladə vəziyyət elan edilməsi barədə qərar qəbul olunub. Türkiyə Böyük Millət Məclisi təsdiqləyəcəyi təqdirdə 3 aylıq fövqəladə vəziyyət elan edilməsi barədə qərar iyulun 21-də axşam qüvvəyə minəcək. Fövqəladə vəziyyət vətəndaşların hüquq və azadlıqlarını məhdudlaşdırmaq üçün deyil, onları qorumaq üçün elan edilib. Məqsəd Silahlı Qüvvələrdəki bütün virusları təmizləməkdir. Fövqəladə vəziyyətin tətbiqi dövlət mexanizminin nizamlanmasının sürətləndirilməsinə və konstitusion nizamın qorunmasına, eyni zamanda, terror təşkilatının ünsürlərinin aradan qaldırılmasına yönəlib.

# Yeni Azərbaycan Partiyası kütləvi informasiya vasitələri ilə əməkdaşlığa böyük önəm verir

*Yeni Azərbaycan Partiyasının İcra Katibliyində 22 iyul Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib*





***Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında 22 iyul Milli Mətbuat Günü münasibətilə tədbir keçirilib. Tədbirdə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxış edərək Milli Mətbuat Günü münasibətilə jurnalistləri təbrik edib.***

Cəmiyyətdə mətbuatın rolunun müstəsna əhəmiyyət kəsb etdiyini deyən S.Novruzov hər bir vətəndaşın məhz mətbuat vasitəsilə informasiya əldə etdiyini bildirib. Azərbaycanda mətbuata dövlət səviyyəsində yüksək qayğı göstərildiyini deyən YAP İcra katibinin müavininin sözlərinə görə, müstəqil ölkəmizdə mətbuatın inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. "Ümummilli lider Heydər Əliyev hər zaman mətbuata və onun nümayəndələrinə qayğı ilə yanaşıb. Ulu öndərimiz mətbuatın problemləri ilə əlaqədar bir sıra fərman və sərəncamlar imzalayıb. Eləcə də, vaxtaşırı olaraq mətbuat nümayəndələri ilə görüşüb. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətin bu gün milli mətbuatın inkişafı üçün atdığı addımlar göz önündədir"- deyə, YAP İcra katibinin müavini vurğulayıb.

Azərbaycanın müharibə şəraitində olduğunu xatırladan S.Novruzov torpaqlarımızın bir hissəsinin işğal olunduğunu, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmaq arzusunda olduğunu qeyd edib. O, qeyd edib ki, bu mənada mətbuatımız Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması baxımından böyük rol oynayır. Ümumiyyətlə, KİV-in dünyada aparıcı rolunu qeyd edən YAP İcra katibinin müavini bildirib ki, müasir dövrdə informasiya amili mühüm önəm kəsb edir və dünyada bu faktor daha da güclənməkdədir. O xatırladaıb ki, Türkiyədə dövlət çevrilişinə cəhd zamanı mətbuat dövlətçilik maraqlarından çıxış etdi: "Hələ 1994-cü ildə Azərbaycanda da dövlət çevrilişinə cəhd zamanı Ulu öndər Heydər Əliyev mətbuat vasitəsilə xalqa müraciət etdi və xalqla Ulu öndərin birliyi nəticəsində həmin cəhdin qarşısı qətiyyətlə alındı".

S.Novruzov bildirib ki, Yeni Azərbaycan Partiyası kütləvi informasiya vasitələri ilə əməkdaşlığa böyük önəm verir. YAP-ın fəaliyyətinin mətbuatda geniş işıqlandırıldığını vurğulayan S.Novruzov bu dəstəyə görə mətbuat nümayəndələrinə təşəkkür edib. O qeyd edib ki, ölkədə keçirilən bütün seçkilər zamanı da YAP mətbuatın imkanlarından geniş istifadə edir. S.Novruzov hazırda Konstitusiya Məhkəməsinin Azərbaycan Konstitusiyasına dəyişikliklərlə əlaqədar Refendum Aktı layihəsinə müsbət rəy verəcəyinə inamını ifadə edib və qeyd edib ki, bu məsələ ilə əlaqədar KİV -in fəallıq göstərəcəyinə inam böyükdür. Dünyada və regionda mürəkkəb proseslərin baş verdiyini xatırladan YAP İcra katibinin müavini belə bir şəraitdə Azərbaycan mətbuatının mütləq əksəriyyətinin milli maraqlardan çıxış etdiyini və Prezident İlham Əliyevin siyasətini dəstəklədiyini vurğulayıb. Hər il 22 iyul Milli Mətbuat Gününün ölkəmizdə ümumxalq bayramı səviyyəsində qeyd olunduğunu deyən YAP İcra katibinin müavini partiyanın bundan sonra da KİV-lə fəal əməkdaşlıq edəcəyini söyləyib.

Sonda tədbirdə iştirak edən jurnalistlərə YAP tərəfindən mükafatlar təqdim olunub.

# Siyavuş Novruzov: Azərbaycanda möhkəm ictimai-siyasi sabitlik mövcuddur, dövlətimiz və cəmiyyətimiz inkişafa köklənib

***“Bu gün dünyada çox mürəkkəb proseslər baş verir. Eləcə də, regionda da baş verən xoşagəlməz hadisələr narahatlıq doğurur. Bütün bunlar ictimai-siyasi sabitliyin hər bir cəmiyyət üçün nə qədər önəmli olduğunu təsdiqləyir”. Bu fikirləri YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.***



S.Novruzov bildirib ki, bu gün dünya ictimaiyyətini narahat edən əsas problemlər terrorizm, etnik qarşıdurmalar, münaqişələrdir. Onun sözlərinə görə, Azərbaycan hərbi təcavüzə və terrora məruz qalan ölkə olduğu üçün bunun fəsadlarını yaxşı bilir. “Bu gün dünya həmçinin qaçqın və miqrasiya problemi ilə üzüzədir. Azərbaycanın bir milyon vətəndaşı qaçqın-köçkün həyatı yaşayır. Onlar Ermənistanın hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşüblər. Buna baxmayaraq, dövlətimiz qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli, onların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində davamlı olaraq addımlar atır. Əsas məsələ isə bu insanların doğma torpaqlarına qayıtmalarıdır. Bu gün işğalçı Ermənistanda böyük gərginlik var. Dövlətimizin siyasəti ona yönəlib ki, danışıqlar prosesi nəticəsində münaqişə tezliklə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun. Azərbaycanın güclü ordusu var. Əgər sülh danışıqları nəticə verməsə, Ali Baş Komandanın əmri ilə hər an ordumuz torpaqlarımızı işğaldan azad edə bilər. Aprel hadisələri bunu bir daha təsdiqləyir. Bu gün Azərbaycan özünü daha da gücləndirir. Ona görə də, dünyada baş verən maliyyə-iqtisadi böhranı Azərbaycanda hiss olunmur. Çünki Azərbaycanda möhkəm ictimai-siyasi sabitlik mövcuddur, dövlətimiz və cəmiyyətimiz inkişafa köklənib. Çünki sabitlik olmayan yerdə sosial-iqtisadi inkişafdan danışmaq mümkün deyil. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə mühüm islahatlar aparılır. Bu islahatlar gələcək inkişafımızı şərtləndirir”- deyə, YAP İcra katibinin müavini vurğulayıb.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Beyləqanda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevinin tapşırıq və tövsiyəsinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. AZƏRTAC xəbər verir ki, iyulun 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Beyləqan rayon Heydər Əliyev Mərkəzində Beyləqan, İmişli, Füzuli, Ağdam və Ağcabədi rayonlarının sakinlərini qəbul edib. Qəbula gələn vətəndaşların müraciətləri əsasən, Xidmətin müvafiq şöbə və bölmələrində işə və ya hərbi xidmətə qəbul, şəhid adının verilməsi, müddətli həqiqi hərbi xidmətə çağırılacaq övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsi və müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququnun verilməsi məsələlərində kömək göstərilməsi və digər məsələlərlə bağlı olub.

General-leytenant Arzu Rəhimov hər bir vətəndaşın müraciətini diqqətlə araşdırıb və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verib. Qaldırılan məsələlərin bir çoxu operativ surətdə yerindəcə həll edilib. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydə alınaraq aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu gənclər təşkilatları üçün qrant müsabiqəsi elan edib

***İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun Müşahidə Şurasının 17-ci iclası keçirilib.***



Fonddan AZƏRTAC-a bildiriblər ki, toplantının gündəliyinə 9-cu qrant müsabiqəsinin elan edilməsi, qurumun 2016-cı ilin birinci yarısındakı fəaliyyəti haqqında hesabat, son 6 ayda beynəlxalq tədbirlərdə iştirak üçün verilmiş qrantlar, Gəncə şəhərinin “Avropa Gənclər Paytaxtı” seçilməsi ilə əlaqədar 8-ci qrant müsabiqəsi çərçivəsində dəstəklənmiş layihələrin icra vəziyyəti və s. məsələlər daxil edilib.

Müşahidə Şurasının sədri, Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Tahir Süleymanov 2012-2016-cı illərdə Fond tərəfindən keçirilmiş 8 müsabiqə çərçivəsində gənclər təşkilatlarının və 16-29 yaşlı fiziki şəxslərin 3226 layihəsinin dəstəkləndiyini, onların həyata keçirilməsi üçün 17 milyon 500 min manatadək vəsaitin ayrıldığını bildirib. Qeyd edib ki, yalnız 8-ci qrant müsabiqəsində “A” kateqoriyası üzrə 144, “B” kateqoriyası üzrə 12, “C” kateqoriyası üzrə 737 layihə dəstəklənib, onların maliyyələşdirilməsi üçün 3 milyon 800 min manatdan artıq vəsait ayrılıb.

T.Süleymanov yeni elan ediləcək müsabiqənin gənc nəslin fiziki, intellektual və mənəvi inkişafının təmin olunmasına, ictimai fəallığının artırılmasına, innovativ ideyalarının və yaradıcı təşəbbüslərinin reallaşdırılmasına yönəldiyini qeyd edərək, müsabiqədə yalnız gənclər təşkilatlarının iştirak edə biləcəyini vurğulayıb.

İclasda aparılan müzakirələr nəticəsində “A” kateqoriyası (yerli layihələr) üzrə 11, “B” kateqoriyası (beynəlxalq layihələr) üzrə 2 istiqamət təsdiq edilib. Layihələrin təqdim olunması üçün bir ayadək müddət (iyulun 25-dən avqustun 25-dən) müəyyənləşdirilib. Müsabiqənin istiqamətləri sırasına “Gəncə - 2016-cı il Avropa Gənclər Paytaxtı” kampaniyası çərçivəsində tədbirlərin təşkili, sağlamlıq imkanı məhdud olan yeniyetmələrin yaradıcılıq qabiliyyətinin və təhsil imkanlarının inkişaf etdirilməsi, şagird və tələbələrin intellektual inkişafına xidmət edən televiziya və radio proqramlarının hazırlanması, gənclərin iştirakı ilə müsabiqələrin, yarışların, festivalların və olimpiadaların keçirilməsi, kiçik biznes qurucuHluğunda və kənd təsərrüfatının inkişafında onların rolunun artırılması, turizm bələdçiliyi sahəsində bilik və bacarıqlarının inkişaf etdirilməsi və s. mövzular salınıb.

Sonra Fondun icraçı direktoru Fərhad Hacıyev qurumun 2016-cı ilin birinci yarısında gördüyü işlər barədə məlumat verib. Qeyd edib ki, ötən 6 ay ərzində gənclər təşkilatları və 16-29 yaşlı fiziki şəxslər üçün bir qrant müsabiqəsi təşkil olunub, ümumilikdə 893 layihə maliyyələşdirilib. Dəstəklənmiş layihələr sırasında yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, dini radikallıq və ekstremizmə qarşı maarifləndirici tədbirlərin təşkili, region gənclərinin ictimai fəallığının artırılması, ekoloji mühitin mühafizəsi və yaxşılaşdırılması, xüsusi qayğıya ehtiyacı olanların müdafiəsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, yerli gənclər təşkilatlarının beynəlxalq gənclər platformaları ilə əməkdaşlığının inkişaf etdirilməsi, gənclərin elmi fəaliyyətinin təşviq edilməsi, incəsənət sahələri üzrə müsabiqə və sərgilərin təşkili, istedadlı gənclərin ixtiralarının və innovativ ideyalarının dəstəklənməsi kimi istiqamətlər üstünlük təşkil edib. Altı ay ərzində Fondun fəaliyyətinə maraq artıb, müraciət edənlərin sayı xeyli çoxalıb.

F.Hacıyev hesabat dövründə Fond tərəfindən təşkil olunmuş tədbirlər, Bakıda keçirilmiş Formula-1 Avropa Qran-pri yarışına könüllülərin cəlb olunmasında qurumun rolu və digər məsələlər haqqında da Müşahidə Şurasının üzvlərinə məlumat verib.

Qurumun beynəlxalq əlaqələr və strateji planlaşdırma sektorunun müdiri Vüsalə Niftəliyeva ilin birinci yarısında Fond tərəfindən beynəlxalq tədbirlərdə iştirak üçün verilmiş qrantlar barədə məlumat verib. Bildirib ki, hesabat dövründə beynəlxalq tədbirlərdə iştirak üçün müraciət edənlərin sayı 138, dəstəklənmiş səfərlərin sayı isə 57 olub. Maliyyələşdirilən səfərlər 31 ölkəni və 47 şəhəri əhatə edib. Ümumilikdə Avropada 42, Asiyada 4, Şimali Amerikada 7, Cənubi Amerikada 3, Afrika qitəsində isə 1 beynəlxalq tədbirdə Azərbaycanın yaradıcı, istedadlı və ictimai fəal gənclərinin iştirakı təmin edilib.

Fondun layihələr və regionlarla iş sektorunun müdiri Orxan Ərəbov 8-ci qrant müsabiqəsi çərçivəsində Gəncə şəhərinin 2016-cı il üçün “Avropa Gənclər Paytaxtı” seçilməsi ilə əlaqədar dəstəklənmiş layihələrin icra vəziyyətindən danışıb, bir sıra rəqəm və göstəriciləri Müşahidə Şurası üzvlərinin diqqətinə çatdırıb. Qeyd edilib ki, bu istiqamət üzrə ümumi məbləği 595 min 400 manat olan 93 layihə dəstəklənib. Həmin layihələrdən 28-i “A”, 6-sı “B”, 59-u “C” kateqoriyasına aiddir. Yerli layihələrdən 7-nin icrasının başa çatdığı, 20-nin hazırda icra olunduğu, birinin isə sentyabrda reallaşdırılacağı vurğulanıb. Beynəlxalq layihələrdən 3-nün artıq reallaşdırıldığı, 3-nün qarşıdakı aylarda həyata keçiriləcəyi qeyd olunub. Fərdi layihələrin isə sentyabrdan etibarən başlayacağı bildirilib. İclasın gündəliyindəki məsələlər ətrafında müzakirələrdə Müşahidə Şurasının üzvləri iştirak ediblər.

# Azad mətbuatın inkişafı jurnalist məsuliyyətini daha da artırır

## YAP Siyasi Şuranın üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin yap.org.az-a müsahibəsi

***- Vüqar müəllim, milli mətbuatımızın 141 illiyi tamam olur. Təbii ki, mətbuatımızın inkişaf tarixindən bəhs edərkən, dövlət müstəqilliyimizin bərpasından sonrakı dövr daha çox xarakterizə edilir. Müstəqillik tariximizin 25 ili Azərbaycan mətbuatında hansı mühüm hadisələrlə yadda qalıb?***

- Öncə bütün media nümayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik edir, onlara yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Bayram günlərində keçdiyimiz yola nəzər salıb, gələcəyimiz üçün bir nəticə əldə etmək bir ənənəyə çevrilib. 25 illik müstəqillik tariximizin ilk əvvəllərində yaşananlar hər birimizə məlumdur. Ölkədə xaos, anarxiya, özbaşınalıq, iqtisadi böhran, torpaqlarımızın işğalı və s kimi xalqın gələcəyə ümidini itirən məqamlar həmin illərin səciyyəvi xüsusiyyəti idi. Dahi şəxsiyyət Heydər Əliyev belə çətin məqamda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Bu qayıdış digər sahələr kimi mətbuatın da inkişaf tarixində yeni bir mərhələnin təməlini qoydu. Məhz ölkəmiz müstəqillik əldə etdikdən sonra hər il iyul ayının 22-si, yəni, ilk milli mətbuatımız olan "Əkinçi" qəzetinin işıq üzü gördüyü tarix Milli Mətbuat Günü kimi qeyd olunur. Azərbaycanın 25 illik müstəqillik tarixinin 1993-cü ilin iyun ayından başlanan inkişaf yolundan bəhs edərkən bu fikri böyük fəxr və inamla qeyd edirik ki, bu tərəqqinin, inkişafın möhkəm təməli məhz ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə, 1969-1982-ci illərdə qoyulub. Həmin dövrlərdə mətbuat azad olmasa da, bütün kütləvi informasiya vasitələri vahid ideoloji xəttə xidmət edib bu çərçivədən kənara çıxmasa da reallıqlardan biri bu idi ki, həmin dönəmdə ümummilli lider Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycanda mətbuatın maddi-texniki bazası möhkəmləndirildi, yeni peşəkar jurnalist nəsli formalaşdırıldı. Bu möhkəm təməl Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən, daha dəqiq desək, ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra növbəti uğurların əldə olunmasında çox mühüm rol oynadı. Təbii ki, möhkəm təməl üzərində qurulan binanın növbəti mərtəbələrini ucaltmaq çətin deyil. Bu gün həmin binanın ən yüksək mərtəbələrini görməyimizdən qürur hissi keçiririk. Əsas budur ki, cəmiyyətin güzgüsü olan mətbuat bu reallıqları olduğu kimi, heç bir qərəzə yol vermədən, obyektiv şəkildə ictimaiyyətə çatdırsın.

Dövlətimizin başçısı möhtərəm İlham Əliyevin "Bu gün ölkəmizin artan imkanları kütləvi informasiya vasitələrinin, o cümlədən milli mətbuatımızın inkişafı üçün kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Kütləvi informasiya vasitələrinə dövlət dəstəyinin əsas məqsədi müstəqil, peşəkar, rəqabətədavamlı, eyni zamanda, milli şüur və vətənpərvərlik prinsiplərinə dönmədən əməl edən media resurslarının formalaşdırılmasıdır. Qlobal informasiya məkanının beynəlxalq ictimai rəyə təsirinin gücləndiyi müasir dövrdə mətbuatımız Azərbaycan xalqının maraqlarını daim müdafiə etməli, cəmiyyətimizin tərəqqisinə, dövlətimizin nüfuzunun daha da yüksəl-



məsinə öz töhfəsini əsirgəməməlidir" fikri Azərbaycan mətbuatının dünəninə, bu gününə və gələcəyinə bir baxış, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi üçün əsasdır. Əvvəldə də qeyd etdiyim kimi, tarixin yaddaşı, zamanın hakimliyi fonunda bu fikri böyük inam və qətiyyətlə qeyd edə bilərik ki, Azərbaycan mətbuatı bu gün inkişafın yeni mərhələsini yaşayır. 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin Fərmanı ilə senzuranın ləğvi demokratik, dünyəvi və sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın inkişaf strategiyasına uyğun olaraq bugünkü inkişaf yolumuza işıq salmaqdadır. Bir sözlə, azad mətbuatın inkişafına əngəl yaradan süni məhdudiyyətlərin aradan qaldırılması, qanunvericiliyin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, mətbuat işçiləri ilə mütəmadi görüşlər ənənəsinin yaradılması, KİV-lərlə bağlı problemlərə operativ və prinsipial müdaxilə edərək həllinə nail olunması ulu öndər Heydər Əliyevin azad sözə və jurnalist əməyinə münasibətini səciyyələndirən faktlardır. Məhz bu diqqət və qayğının nəticəsi olaraq, ulu öndər Heydər Əliyev 2002-ci ildə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür. Son 13 ildə Heydər Əliyev siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev cəmiyyət həyatında mətbuatın rolunu yüksək dəyərləndirərək bildirir ki, hüquqi dövləti mətbuatsız təsəvvür etmək qeyri-mümkündür. Ən əsası bu vacib məqam önə çəkilir ki, müasir dünyada inkişaf etmiş ölkələrdə azad medianın səviyyəsi hər bir ölkənin səviyyəsini göstərir. Azərbaycanın qarşısında isə gələcəkdə inkişaf etmiş ölkələrin sırasına daxil edilməsi kimi mühüm bir vəzifə durur. Belə olan halda Azərbaycanda media ilə bağlı məsələlər ən yüksək səviyyədə öz həllini tapmalıdır. Bu, möhtərəm Prezidentimiz İlham Əliyevin mətbuatın qarşısına qoyduğu əsas tələblərdəndir.

Keçilən yolun təhlili əsasında Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimizin reallıq olduğunu daha aydın görürük. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi illərində həyata keçirdiyi çoxşaxəli islahatların və onların son on üç ildə möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsi olaraq bu gün ölkəmizdə söz və mətbuat azadlığı sahəsindəki mövcud vəziyyət qabaqcıl demokratik ölkələrlə müqayisə edilə bilər. Azərbaycan KİV-lərin sayına görə MDB və Şərqi Avropa ölkələri arasında lider mövqedə dayanır. Ölkəmizdə 4 minə yaxın kütləvi informasiya vasitəsi dövlət qeydiyyatına alınıb. Xeyli sayda jurnalist təşkilatları və ictimai birliklər fəaliyyət göstərir. Sürətlə inkişaf edən internet resursları vətəndaş cəmiyyəti quruculuğunun fəal iştirakçısına çevrilərək cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayır. Ölkəmizdə internet azaddır, heç bir məhdudiyyət yoxdur. İnternet istifadəçilərinin sayı 75 faizdən çoxdur. Son 13 ilin mühüm hadisələri sırasında 2005-ci ildə "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamları xüsusi qeyd etməliyik. Həmin ildə mətbuatın 130 illik yubileyinin respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunması, jurnalistlərin fəxri adlarla mükafatlandırılması mətbuata diqqət və qayğının göstəricilərindəndir. Azərbaycan milli mətbuatının 135 və 140 illik yubileyləri də dövlət başçısının biri-birindən əhəmiyyətli sərəncamları ilə yadda qaldı. Belə ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamları əsasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımının göstərilməsi, onlarla jurnalistin fəxri adlar və "Tərəqqi" medalı ilə təltif edilməsi, mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna maliyyə vəsaitinin ayrılması media ictimaiyyətinin rəğbətlə qarşıladığı mühüm hadisələr sırasındadır. Milli mətbuatın 138 illiyində dövlətimizin başçısı cənab İlham Əliyevin iştirakı ilə jurnalistlər üçün tikilən ilk bina istifadəyə verildi. Mərasimdə dövlətimizin başçısı cənab İlham Əliyevin söylədiyi "Bildiyiniz kimi, bu evdə mənzil alan jurnalistlərin arasında müxtəlif mətbu orqanların nümayəndələri, müxtəlif siyasi baxışlara malik olan insanlar vardır. Bu da təbiidir və bu təşəbbüs, burada aparılan bölgü bir daha göstərir ki, Azərbaycanda heç bir sahədə ayrı-seçkiliyə yol verilmir və yol verilməməlidir. Məhz buna görə hesab edirəm ki, cəmiyyətdə çox sağlam ab-hava vardır. Əlbəttə ki, jurnalistlərin peşəkarlığı, onların ictimai rəydəki fəaliyyəti bu sağlam ab-havanı daha da sağlam edəcəkdir" fikirləri ölkəmizdə mətbuatın azad, müstəqil olmasının, ən əsası hansı mövqedə olmasından asılı olmayaraq bütün mətbu orqanlara eyni yanaşmanın təsdiqidir. Möhtərəm Prezidentimiz İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi haqqında Sərəncamı, bu sənədə uyğun olaraq dövlət başçısının 3 aprel 2009-cu il tarixli Sərəncamı əsasında Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması da azad mətbuatın inkişafına xidmət edən addımların əsas tərkib hissələrindəndir.

Məhz bu diqqət və qayğının nəticəsi olaraq dövlətimizin başçısı İlham Əliyev iki dəfə "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğuya əsasən "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. "Jurnalistlərin dostu olmaq mənim üçün böyük şərəfdir" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, aldığı bu mükafatdan asılı olmayaraq, bundan sonra da Azərbaycanda bu sahədə daha da böyük addımlar atılacaq: "Ölkədə müasir jurnalistikanın formalaşması işində Azərbaycan dövləti və Prezident kimi mən səylərimi əsirgəməyəcəyəm." Ölkə Prezidenti bir daha təsdiqləyir ki, dövlətimiz demokratiyanın əsas atributlarından olan söz və məlumat azadlığının inkişaf etdirilməsində, KİV-lərin iqtisadi müstəqilliyinin gücləndirilməsində, ölkədə azad və plüralist medianın inkişafında maraqlıdır və qarşısında duran vəzifələri tam məsuliyyətlə və yüksək səviyyədə yerinə yetirir.

***- Heç şübhəsiz ki, ölkəmizin sürətlə inkişaf etdiyi, demokratikləşmə prosesinin dərinləşdiyi, cəmiyyət həyatının bütün sahələrinin yeniləşdiyi müasir dövrdə milli mətbuatımızın qarşısında yeni vəzifələr durur. Mətbuat orqanları dövlətçiliyimizin inkişafına xidmət missiyalarını hansı səviyyədə yerinə yetirirlər?***

- Azərbaycanın 25 illik müstəqillik tarixinin bələdçisi olan mətbuat bu yolun heç də hamar olmadığının şahididir. Təbii ki, Azərbaycanın müstəqilliyini yenidən bərpa etdiyi ilk illərlə bu günü müqayisə etdikdə müstəqilliyin saxlanılmasının, qorunmasının onun əldə edilməsindən nə qədər çətin olduğunu görürük. Bu gün Azərbaycan özünün unikal inkişaf modeli ilə dünyanın diqqətindədir. Etibarlı tərəfdaş kimi mövqeyini günbəgün möhkəmləndirir. Dünyanın ən islahatçı, xoşbəxt ölkəsi, Cənubi Qafqaz regionunun parlayan ulduzu kimi tanınır və nüfuz qazanır. Hər zaman bu tələb öz aktuallığını saxlayır ki, ictimai fikrə təsir imkanları böyük olan yazılı və elektron KİV-lər ictimaiyyətin gözləntilərini hansı səviyyədə yerinə yetirdiklərini düşünməli, hər gün özünə hesabat verməlidir. Cəmiyyətin informasiya tələbatını yalan, qərəzli, heç bir mənbəyə əsaslanmayan məlumatlarla ödəməyə çalışan mətbu orqana inamdan danışmaq qeyri-mümkündür. Mətbuatın əsas prinsipləri obyektivlik, qərəzsizlik, vətənpərvərlik olmalıdır. Bu üç amilin vəhdətliyi əsasında daha dolğun, ölkənin bu günü və gələcəyi üçün daha önəmli məsələlərin müzakirəsinə və həllinə xidmət edən yazıları oxucuya çatdırmaq, verilişləri tamaşaçıya təqdim etmək olar. Amma çox təəssüflər olsun ki, bu prinsipləri fəaliyyətlərində arxa plana keçirən mətbuat orqanları vardır. Dövlətimizin başçısı cənab İlham Əliyevin bildirdiyi kimi, ölkə daxilində təbii ki, müxtəlif baxışlar, müxtəlif siyasi meyillər vardır. Burada müzakirələr təbiidir. Hər bir normal cəmiyyətdə bu, olmalıdır. Ancaq biz dövlət maraqlarımızı üstün tutmalı, dövlətçiliyimizin inkişafına öz töhfəmizi verməliyik. Bu baxımdan jurnalist peşəkarlığı, ən əsası onun vətənpərvərlik duyğuları əsasdır.

Ardı Səh. 6

# Azad mətbuatın inkişafı jurnalist məsuliyyətini daha da artırır

*YAP Siyasi Şuranın üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin yap.org.az-a müsahibəsi*

**Əvvəli səh. 5**

2014-cü ilin avqustun əvvəlində Ermənistan-Azərbaycan dövlət sərhədində və qoşunların təmas xəttində müşahidə olunan gərginlik bəzi kütləvi informasiya vasitələrinin, xüsusilə internet resurslarının qanunvericiliyin tələblərinə zidd və qeyri-peşəkar fəaliyyətini, habelə aidiyyəti dövlət orqanlarının informasiyanın verilməsinə məsul olan struktur bölmələrinin öz funksiyalarını lazımi səviyyədə yerinə yetirə bilməməsini açıq nümayiş etdirmişdir. Həmin ərəfədə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin yanında dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin və kütləvi informasiya vasitələri rəhbərlərinin müşavirəsində də cəbhə xəttində vəziyyət barədə yanlış məlumatlar, hərbi hissələrimizin dislokasiyası və hərəkəti, həlak olmuş hərbçilərin sayının süni şəkildə şişirdilməsi və bu mövzuda müxtəlif spekulyativ informasiyaların yayılması, cəbhə bölgəsində yaşayan əhali və ölkə ictimaiyyəti arasında çaşqınlıq yaratmaq cəhdləri, düşmənin maraqlarına xidmət edən məlumatların sızdırılması və s. barədə konkret faktlar göstərilərək, xəbərdarlıq edilmişdir. Bildirilmişdir ki, dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycanın təhlükəsizliyinə ziyan vura bilən məlumatlar dövlət sirri kateqoriyasına şamil edilir və onların ictimailəşdirilməsi qanuna müvafiq məsuliyyət yaradır. Dövlətimizin başçısı cənab İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Sərəncamında da bildirilir ki, əsassız, ictimai rəyi əks etdirməyən təxribat xarakterli məlumatların qarşısının alınmasında güclü vasitə olan informasiya təhlükəsizliyinin təminatı Azərbaycan həqiqətlərinin olduğu kimi dünyaya çatdırılması baxımından daha önəmlidir.

Təbii ki, bu günümüzün əsas çağırışlarından biri informasiya təhlükəsizliyinin təmin edilməsidir. Dövlətin, cəmiyyətin və vətəndaşların həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun artması informasiya təhlükəsizliyi məsələlərini hər zaman öndə saxlayır. Möhtərəm Prezidentimiz İlham Əliyevin "İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi haqqında" Fərmanı bu sahədə mövcud problemlərin həllində mühüm mexanizmdir.

Daim bu reallıq qeyd edilir ki, hər bir demokratik cəmiyyətdə müxalifətin olması mütləqdir. Amma müxalifətçilik dövlət maraqlarına, xalqın mənafeyinə zidd addımların atılması kimi qəbul olunmamalıdır. Bir məqamı unutmayaq ki, hansı sahədə çalışmağımızdan, siyasi əqidəmizdən, mənsubiyyətimizdən asılı olmayaraq hər birimiz bu ölkənin vətəndaşıyıq. Vətəndaşlıq təəssübkeşliyini qorumalı, bir vətəndaş olaraq üzərimizə düşən vəzifəni yüksək səviyyədə yerinə yetirməyə çalışmalıyıq. Həqiqət carçısı olan mətbuat dövlətçilik maraqlarını hər şeydən üstün tutmalı, Azərbaycan reallıqlarının ölkə və dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasına öz töhfəsini verməlidir. Bir məqamı da unutmayaq ki, informasiya bolluğunda daha dəqiq və keyfiyyətli informasiyanın seçimi çətinlik yaratdığından, bu informasiyanın ictimai fikrə müsbət və mənfi təsirinin fərqində olmalıyıq.

***- Vüqar müəllim, mətbuatın inkişafında əsas amillərdən biri də jurnalist peşəkarlığının və məsuliyyətinin artırılmasıdır. Bu istiqamətdə görülən tədbirləri necə dəyərləndirirsiniz?***

- Dövlətimizin başçısı cənab İlham Əliyev çıxışlarında daim jurnalist peşəkarlığına və məsuliyyətinə xüsusi diqqət yönəldir. Möhtərəm Prezidentimizin jurnalistlər üçün tikilmiş binada mənzillərin paylanması mərasimində söylədiyi fikirləri bir daha xatırlatmaq istərdim: " Jurnalistlərin məsuliyyəti də əlbəttə ki, daim müzakirə mövzusudur. Xüsusilə azad mətbuat olan halda jurnalistlərin məsuliyyəti ön plana çıxır. Mən şadam ki, son illər ərzində bu istiqamətdə müsbətə doğru irəliləyiş vardır, jurnalistlər öz məsuliyyətini daha da dolğun şəkildə dərk edirlər, mətbuatda gedən, həqiqəti əks etdirməyən təhqiramiz yazılara da az-az rast gəlmək olur. Bu da jurnalistlərin məsuliyyətindən xəbər verən amillərdir. Eyni zamanda, müasir cəmiyyətdə, internet dövründə hər hansı bir yalan məlumatın ömrü uzun ola bilməz. Ona görə jurnalistlərin məsuliyyəti hesab edirəm ki, gələcəkdə də daim diqqət mərkəzində olmalıdır. Bilirəm ki, jurnalist ictimaiyyəti, Mətbuat Şurası bu məsələləri daim diqqət mərkəzində saxlayır. Necə ki, hər bir insan qanun qarşısında, cəmiyyət qarşısında məsuliyyət daşıyır, əlbəttə, jurnalistlər də bu məsuliyyəti daşımalıdırlar və eyni zamanda, onların məsuliyyəti bəlkə də daha da çox olmalıdır." Dövlətimizin başçısı, eyni zamanda, bu inamı ifadə edir ki, media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında, müstəqil medianın gücləndirilməsində görürəm.

Jurnalist peşəkarlığının artırılması istiqamətində addımlar davamlıdır. Möhtərəm Prezidentimiz İlham Əliyev jurnalistlərin vətənpərvər olmalarını ən vacib amil kimi diqqətə çatdırır: "Bütövlükdə Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyinə bağlıdır. Xüsusilə gənc müstəqil dövlətlərdə vətənpərvərlik hissləri daha da güclü olmalıdır və daim mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirirəm. Bir daha demək istəyirəm ki, bu, sadəcə olaraq bir şüar, bir söz deyil, bu, zərurətdir. Bizim gənclərimiz vətənpərvərlik ruhunda böyüməlidir, tərbiyə almalıdır və jurnalistikanın bu sahədə çox böyük rolu vardır."

Azərbaycanın müharibə şəraitində yaşadığını nəzərə alsaq, bu gün cəmiyyətin yazılı və elektron KİV-lərdən gözləntilərinin nədən ibarət olduğunu daha aydın görə bilərik. Möhtərəm Prezidentimizin yuxarıda qeyd etdiyimiz fikrindən də göründüyü kimi, ölkəmizdə jurnalist peşəkarlığı və məsuliyyəti heç də aşağı səviyyədə deyil. Amma əgər zaman dəyişirsə, qarşıya yeni tələblər çıxırsa, sözsüz ki, cəmiyyətin güzgüsü olan mətbuat da təkmilləşdirilməli, jurnalist peşəkarlığı və məsuliyyəti daha da artırılmalıdır. Bu istiqamətdə Mətbuat Şurasının, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun həyata keçirdiyi tədbirlər və layihələr təqdirəlayiqdir. Azərbaycan Mətbuat Şurasının qarşısında duran əsas məqsədlərdən biri jurnalistlərin peşə etikası Kodeksinin tələblərinə əməl etmələrinə ictimai nəzarətin həyata keçirilməsi, "reket jurnalistikası"na qarşı mübarizədir. Qurum fəaliyyətə başladığı gündən KİV-lərin saflaşdırılması istiqamətində mühüm addımlar atmış, jurnalistlərin peşəkarlığının artırılması işində müsbət nəticələr əldə etmişdir. Dövlətimizin başçısı cənab İlham Əliyev Azərbaycan jurnalistlərinin VI qurultayının iştirakçılarına ünvanladığı təbrikində bu məqamı xüsusi qeyd etmişdir ki, Azərbaycan jurnalistlərinin I qurultayında mətbuatın özünütənzimləmə orqanı kimi yaradılmış Mətbuat Şurası media-dövlət, media-cəmiyyət münasibətlərinin müasir beynəlxalq təcrübəyə uyğun nizamlanmasında əhəmiyyətli rol oynamışdır. Mətbuat Şurasının fəaliyyəti bütövlükdə Azərbaycan jurnalistikasının inkişafına, dövlət orqanları, vətəndaşlarla mətbuat arasında münasibətlərin tənzimlənməsinə, jurnalistlərin peşəkarlığının yüksəlməsinə, söz və məlumat azadlığından sui-istifadə hallarının qarşısının alınmasına xidmət etmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun və Mətbuat Şurasının icra hakimiyyətləri və nazirliklərlə birlikdə günümüzün reallığını əks etdirən ayrı-ayrı mövzulara aid yazı müsabiqələri təşkil etmələri, qaliblərin mükafatlandırılması müstəqil mətbuatın inkişafına, jurnalistlərin peşəkarlığının artırılmasına, yaradıcılıq imkanlarının genişləndirilməsinə yönəlmiş ən mütərəqqi addımlardır. Fond yazı müsabiqələrinin keçirilməsinə xüsusi önəm verməklə jurnalistlərin fərdi peşəkarlığına, redaksiyalarda yaradıcılıq mühitinin inkişafına dəstək olur. Dövlətimizin başçısı cənab İlham Əliyev Mətbuat Şurasının yeni binasının açılışında bildirmişdir: "Hesab edirəm ki, peşəkarlıq artdıqca, jurnalistikada bax, qeyd etdiyiniz bu reket məsələləri də aradan qaldırılacaqdır. Ondan sonra bizim milli adət-ənənələrimizə xas olmayan başqa məqamlar da aradan qaldırılacaqdır. Təhqirlərə, böhtanlara, yalanlara son qoyulacaqdır. Mən hesab edirəm ki, bunun vaxtı çatıbdır."

***- Dövrün tələblərindən biri də internet jurnalistikasının inkişafıdır. Bununla bağlı fikirlərinizi bilmək istərdik...***

- İnformasiya cəmiyyəti elə cəmiyyətdir ki, burada əhalinin böyük hissəsi müasir informasiya texnologiyalarından istifadə etməklə informasiyanın istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olur. Artıq virtual məkanın yaratdığı imkanlar hesabına bir ölkədə yaşamaqla digər ölkədə cərəyan edən hadisələr barədə dolğun məlumat əldə etmək mümkündür. Müasir texnologiyalar imkan verir ki, fiziki imkanları məhdud olan şəxslər də internet vasiətsilə jurnalist kimi fəaliyyət göstərsinlər. Bütün bunlar internet jurnalistikanın əhatə dairəsinin genişlənməsini, inkişafını stimullaşdıran əsas amillərdəndir. Müqayisəli təhlillər fonunda bir daha təsdiqlənir ki, zaman dəyişdikcə təkmilləşmə bir tələb kimi ortaya qoyulur. Əvvəllər insanlarda informasiya əldə etmək üçün oxumağa, radioya qulaq asmağa, televiziyanı izləməyə ehtiyac yaranırdısa, bu gün artıq həyatımızın ayrılmaz parçasına çevrilən, müxtəlif qurumlar, insanlar arasında münasibətlərin yaranmasında xüsusi rolu olan sosial şəbəkə, daim yenilənən xidmət sahələri ilə insanları təəccübləndirən, uzaqları yaxın edən, informasiya məkanında inqilab adlandırılan, cəmiyyətin hər üzvünü hadisələr haqqında məlumatlandıran internet ictimai rəyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Əsas məsələ internetdən istifadə zamanı informasiya məsuliyyətini dərindən dərk edib, məlumatların ictimaiyyətə çatdırılmasında, auditoriyanın formalaşdırılmasında peşəkarlığın səviyyəsini qorumaqdır.

***- Vüqar müəllim, ölkəmizin çoxsaylı mətbu orqanları sırasında öz dəstxətt ilə seçilən "İki sahil" qəzeti bu günlərdə 25 illiyini qeyd etdi. Rəhbərlik etdiyiniz qəzetin keçdiyi yolu necə şərh edərdiniz və gələcək üçün hansı bazanı formalaşdırdığını göstərə bilərdiniz?***

- "İki sahil"in yaranmasının ölkəmizdə ictimai-siyasi durumun gərgin olduğu, Azərbaycanın böyük faciələrlə üz-üzə qaldığı bir vaxta təsadüf etdiyini nəzərə alsaq, dövlətə xidməti fəaliyyətinin əsas prinsipinə çevirən, "düzü düz, əyrini əyri" yazmağı qarşısına məqsəd qoyan mətbuat orqanı üçün hansı çətinliklərin, təzyiqlərin mövcudluğunu aydın təsəvvür etmək mümkündür. "İki sahil" o dövrün reallıqlarını ictimaiyyətə çatdırmaqdan çəkinmədi. Öz ideallarına sadiq qalaraq sınaqlardan şərəflə çıxdı. Qəzetin səhifələrində Azərbaycanın bu günü və gələcəyi naminə dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışının vacibliyi qeyd olundu. Azərbaycan xalqının böyük əksəriyyətinin idarəsinin ifadəsi olan 91 nəfər ziyalının ümummilli lider Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" sərlövhəli müraciəti qəzetimizin səhifələrində geniş yer aldı. Müraciətdə də bu fikir xüsusi qeyd olunurdu ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz. Aydındır ki, bu müraciətin əsas məqsədi geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiyanın yaradılması, ona ulu öndər Heydər Əliyevin rəhbərlik etməsi idi. Müraciətdə Ulu Öndərə xitabən bu əminlik də ifadə olunmuşdu ki, yalnız Sizin rəhbərliyiniz sayəsində yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyası qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrindən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu dolduracaq, dövlət quruculuğu işində öz layiqli töhfəsini verə biləcək. Ümummilli Lider Azərbaycan ziyalılarının müraciətinə cavabı ilə bir daha xalqla həmrəyliyini nümayiş etdirdi. Yaradılacaq partiyanın fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirən ümummilli lider Heydər Əliyev bu inamı ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər.

**Ardı Səh. 7**

# Azad mətbuatın inkişafı jurnalist məsuliyyətini daha da artırır

*YAP Siyasi Şuranın üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin yap.org.az-a müsahibəsi*

Əvvəli Səh. 6

Bu gün ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan, sıralarında 700 minə yaxın üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının 1992-ci ildə yaranmasını zərurətə çevirən həmin dövrün reallıqları oldu. Bütün bu keçilən yol "İki sahil" qəzetində geniş işıqlandırıldı, ictimaiyyət nümayəndələrinin fikir və mülahizələri, rəyləri dərc olundu, ümumi fikir bu oldu ki, ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqillik tarixinin yeni səhifəsini yazdı. Azərbaycan parçalanmaqdan xilas oldu, yeni Azərbaycan quruldu. İllər birbirini əvəzlədikcə Azərbaycan uğurları ilə dünyanın diqqətində dayandı. Qısa zamanda sabitlik diyarına çevrilən ölkəmiz eyni zamanda əməkdaşlıq məkanına çevrildi. "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" bəyan edən ulu öndər Heydər Əliyevin 22 il əvvəl əsasını qoyduğu yeni neft strategiyası, bu strategiyanın təməlində dayanan "Əsrin müqaviləsi" Azərbaycanın bugünkü və gələcək yoluna işıq saçır. Azərbaycanın zəngin təbii resurslarının dünya bazarlarına çıxarılması, neft gəlirlərinin ölkəmizin hərtərəfli inkişafına, xalqımızın rifahının yüksəlməsinə sərf edilməsi Ulu Öndərin gələcəyə hesablanmış fəaliyyətində əsas yer tutur-du. SOCAR-in təsisçiliyi ilə fəaliyyət göstərən "İki sahil" ölkəmizin hərtərəfli inkişafının təməl daşı olan iqtisadi sahədə, o cümlədən neft-qaz sektorunda qazanılan uğurların təbliğatçısına çevrilərək, bu gün də bu missiyanı uğurla yerinə yetirir.

1994-cü il sentyabrın 20-də ümummilli lider Heydər Əliyevin qətiyyəti ilə imzalanan "Əsrin müqaviləsi" ilə icrasına başlanan qlobal enerji layihələri beynəlxalq əməkdaşlığı genişləndirməklə xarici sərmayələrin ölkəyə gətirilməsi prosesini gücləndirdi. Enerji təhlükəsizliyi məsələlərinə diqqəti artırmaqla iqtisadi yüksəlişinin təməli qoyulan Azərbaycan müstəqil siyasət yeritdi. Vaxtilə çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələri reallığa çevrilməklə, bu gün artıq regional müstəvidən çıxıb, qlobal xarakter daşıyır. Möhtərəm Prezident İlham Əliyevin vurğuladığı kimi, bu layihələr olmasaydı, bu gun "Cənub Qaz Dəhlizi"ndən söhbət gedə bilməz, Avropanın enerji təhlükəsizliyi məsələləri tamamilə başqa istiqamətdə həll olunardı: "Bu gün əldə edilmiş uğurlar əsasında gələcəyə baxırıq. O gələcəyə ki, qarşımızda yeni imkanlar, yeni üfüqlər açılır."

Uğurlar biri-birini əvəzlədikcə dövlətə və dövlətçiliyə xidmət yolunu tutan "İki sahil" qəzetinin səhifələrndə müşahidə olunan informasiya bolluğu diqqətdən yayınmır, oxucu auditoriyası daha da genişlənir. Qəzetin hər sayında dövlətimizin uğurlu iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlər rəqəmlərin dili ilə ictimaiyyətə çatdırılır. İqtisadi tərəqqinin hər bir sahənin inkişafı üçün stimul olduğu əsaslı şəkildə şərh edilir. Bu inkişafa verdiyi töhfələri daim yüksək dəyərləndirilən SOCAR və onun ayrı-ayrı strukturlarının gördüyü işlər, qarşıya qoyduğu planlar qəzetimizdə xüsusi yer tutur. Bu gün adı beynəlxalq şirkətlər sırasında qeyd olunan SOCAR fəaliyyət istiqamətlərini genişləndirməklə uğurlarının davamlılığını yüksək səviyyədə təmin edir.

Təbii ki, uğurlarımız çoxdur. Azərbaycan ulu öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ən yüksək zirvələri fəth edir. Ölkəmizin hər sahədə qazandığı uğurlar "İki sahil"in səhifələrində yer alır. Azərbaycan dövlətinin artan imkanları milli mətbuatımızın inkişafı yolunda çətinliklərin aradan qaldırılmasına, onun aktual problemlərinin həlli məqsədilə kompleks tədbirlərin həyata keçirilməsinə şərait yaradır. Bu qayğını qəzetimiz hər zaman hiss edir, yüksək dəyərləndirir. Qəzetimizdə mövzu rəngarəngliyi, müəyyən məsələlərə yanaşma tərzi məsuliyyətli yaradıcı mühitin mövcudluğundan xəbər verir. 25 ildə qəzet jurnalist fəaliyyətinə başlayanlar üçün təcrübə məktəbi oldu. Bu gün vaxtilə qəzetin əməkdaşı olanlar ayrı-ayrı mətbu orqanlara rəhbərlik edir, qazandıqları təcrübəni kollektivin əməkdaşları ilə bölüşürlər. Məsuliyyət varsa, peşəkarlıq da olacaq. Bu isə özü-özlüyündə yüksək səviyyəli yazıların yaranmasına yol açır. "İki sahil" 25 ildə qazandığı uğurlar fonunda gələcəyə doğru inamla addımlayır. "İki sahil"in daim yeniləşən internet saytı, qısa müddətdə fəaliyyətə başlamasına baxmayaraq geniş tamaşaçı kütləsi qazanan "İki sahil" internet televiziyası cəmiyyətin informasiya tələbatının ödənilməsinə öz töhfəsini verməyə səy göstərir. Biz bu prinsipi də fəaliyyətimizdə əsas götürmüşük ki, qəzetin bugünkü sayı dünənki sayından müəyyən yeniliyi ilə fərqlənsin, yazıların keyfiyyəti, informasiya yükü artsın. Təbii ki, dövlətə, dövlətçiliyə xidməti fəaliyyətinin önündə saxlayan mətbuat orqanı olaraq qazandığımız uğurlar dövlətimizin 25 illik müstəqillik tarixi ilə sıx bağlıdır. Qazanılan uğurlar 25 illik zaman kəsiyini xeyli zənginləşdirdiyi üçün əldə olunanları bir qəzet yazısı çərçivəsində əhatə etmək qeyri-mümkündür. Ötən illər ərzində qəzetimizin fəaliyyəti daim yüksək dəyərləndirilmiş, əməkdaşlarımızın bir qismi "Əməkdar jurnalist" fəxri adına və eyni zamanda "Tərəqqi" medalına layiq görülmüşdür. Etimad böyük məsuliyyətdir. Bu məsuliyyəti yüksək səviyyədə dərk edərək, müstəqil, azad mətbuatın inkişafına öz töhfəmizi daha da artırmağımıza çalışırıq.

## Mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə üç milyon manat ayrılıb



Prezident İlham Əliyev mətbuat işçiləri üçün yaşayış binasının tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan mətbuat işçilərinin mənzil şəraitinin yaxşılaşdırılması üçün inşa olunan yaşayış binasının tikintisinin davam etdirilməsi məqsədilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna üç milyon manat ayrılıb.

## *Mariya Zaxarova:* Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proses dinamikliyini itirməyəcək




Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı proses çox intensiv başlayıb və dinamikliyini itirməyəcək. Bu fikri Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova keçirdiyi brifinqdə bildirib. XİN rəsmisi qeyd edib ki, münaqişənin həlli ilə bağlı Rusiya Federasiyası rəhbərliyinin də iştirak etdiyi danışıqlar prosesi və ona verilən impuls dayanmamalıdır. Münaqişənin həlli prosesinə Türkiyənin də cəlb edilməsinə dair məsələyə münasibət bildirən M.Zaxarova deyib ki, hər hansı konstruktiv köməyə konstruktiv qarşılıqlı fəaliyyət nöqteyi-nəzərindən baxmaq olar. Əgər dövlət və ya dövlətin rəsmi şəxsləri prosesə müsbət nəsə əlavə edərsə hər hansı problem yaranmaz.

## Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılıb



Prezident İlham Əliyev Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında Sərəncam imzalayıb. AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycanda nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı göstərmək üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna bir milyon manat ayrılıb.

## Elmar Qasımov Qafqaz Universitetinin kollektivinə təqdim olundu

Bakı Ali Neft Məktəbinin idarəçiliyinə verilmiş Qafqaz Universitetində keçirilən tədbirdə Beynəlxalq Təhsil Mərkəzi İdarə Heyətinin sədri Xalik Məmmədov Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımovu Qafqaz Universitetinin kollektivinə təqdim edib. BANM-dan SİA-ya verilən məlumata görə, SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov bildirib ki, idarəçiliyin dəyişməsi sistemin effektivliyinin daha da artırılmasını nəzərdə tutur.




Vitse-prezident Qafqaz Universitetinin sabiq rektoru Ahmet Saniçə 11 il ərzində göstərdiyi fəaliyyət və uğurlarına görə təşəkkür edərək, ona bundan sonrakı fəaliyyətində uğurlar arzulayıb. Xalik Məmmədov Qafqaz Universitetində sistemin dəyişməyəcəyini, hətta bundan sonra daha da inkişaf edəcəyini vurğulayıb. O, bildirib ki, universitetdə bütün fakültələr olduğu kimi qalacaq və tələbə qəbulu davam etdiriləcək. Universitetin idarə edilməsinə yeni təyin edilmiş Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov bildirib ki, bundan sonra Ali Neft Məktəbi ilə yanaşı, Qafqaz Universitetinin inkişaf etdirilməsi onun qarşısında duran vacib məsələlərdən olacaq. Elmar Qasımov Universitetin inkişafı üçün çalışacağını deyib. Qafqaz Universitetinin sabiq rektoru Ahmed Saniç kollektiv qarşısında çıxış edərək qarşıdakı fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıb. Ahmet Saniç vurğulayıb ki, Qafqaz Universteti bundan sonrakı mərhələlərdə daha da inkişaf edəcək.



## Kənd təsərrüfatı naziri Lerikdə cənub bölgəsindən olan vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbul cədvəlinə uyğun olaraq, kənd təsərrüfatı naziri Heydər Əsədov iyulun 21-də Lerik şəhərində Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarından olan vətəndaşları qəbul edib. AZƏRTAC xəbər verir ki, nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin də iştirakı ilə keçirilən qəbulda 30 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciətləri əsasən fermerlərə güzəştli kreditlərin verilməsi, əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, kənd təsərrüfatı texnikalarının alınmasına kömək göstərilməsi və texniki təminatın artırılması, pay torpaqları ilə bağlı yaranmış problemlərin həlli, ixtisasa uyğun işlə təmin olunma və digər məsələlərlə bağlı olub. Nazir Heydər Əsədov vətəndaşların müraciətlərini, şikayət və təkliflərini dinləyərək, hərtərəfli öyrənilməsi və qanunvericiliyə uyğun tədbirlərin görülməsi üçün nazirliyin müvafiq strukturlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan digər məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# 141 il böyük tarixi yol keçən milli mətbuatımız

***On doqquzuncu yüzillikdə "Əkinçi"dən başlanan mübarizələrlə dolu yolun 141-ci ildönümünü qeyd edirik. Tarixə nəzər salanda, bu yolun başlanğıcında Azərbaycan mətbuatında əbədi iz buraxan Həsən bəy Zərdabinin işıqlı siması, nurlu əməlləri ilə üz-üzə dayanırıq. Azərbaycana olan sonsuz məhəbbəti, xalqına, millətinə xidmət etmək arzusu onun belə bir mətbuatın təməl daşını qoymasına gətirib çıxarır. Doğma ana dilində qəzetə böyük ehtiyac duyulduğu zamanda fədakarcasına, minbir zəhmətlə, əzabəziyyətlə 1875-ci ilin 22 iyulunda Bakıda qubernatorun mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə nail olan Həsən bəy bu mətbu orqanla milli mətbuatımızın əsasını qoymuş oldu. Bu elə bir dövr idi ki, zamanla məqsəd-məslək arasında bir uçurum və ziddiyyət var idi. Milli ruhda, milli dildə qəzet çıxarmaq üçün hökumətdən icazə almaq çətin və illərin bahasına mümkün idi. Reallıqları nəzərə alaraq çətin bir yolda çox əmək və zaman itirəcəyini Zərdabi yaxşı başa düşürdü:"Bəs qəzeti necə çıxardım? Pul yox, yazıçı yoldaş yox, çapxana yox, hürufat yox, bir-iki yüzdən artıq oxuyan da olmayacaq. Dövlət tərəfindən izn almaq da ki, bir böyük bəladır".***

Azərbaycanın o zamankı tarixi inkişaf səviyyəsində ən təsirli, ən münasib vasitələrdən biri mətbu söz olduğunu dərk edən Həsən bəy Zərdabi "Əkinçi" qəzetin nəşrinin əhəmiyyətini çox aydın dərk etdiyindən, hər bir əzaba qatlaşdı və zəhməti bəhrə verdi. XIX əsr Azərbaycan ictimai-siyasi həyatının aynası olan və cəmi 56 nömrəsi çıxan qəzet 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirərək, ayda iki dəfə 300-400 tirajla nəşr olundu.

"Əkinçi"nin dəsti-xətti bir ideya üzərində qurulduğundan, bu qəzetə maarifpərvər və demokratik ruhlu qələm sahibləri cəlb olundu. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsilə xalqa çatdıra bildilər. Qısa bir zamanda "Əkinçi"də Moskvadan Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin, Şamaxıdan Məhəmmədtağı Əlizadə Şirvaninin, Seyid Əzim Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olundu.






"...Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar"

Həsən bəy Zərdabi

## "BİZ MÜSƏLMANLAR ELMDƏN VƏBA NAXOŞLUĞUNDAN QAÇAN KİMİ QAÇIRIQ, HƏTTA PADŞAHLIQ XƏRCİ İLƏ DƏ OXUMAQ İSTƏMİRİK..."

Hər nömrəsində xalqı maarifləndirmək ideyası ilə oxucuların görüşünə gələn "Əkinçi" xalq danışıq dilində öz fikirlərini geniş bir təbəqəyə çatdırırdı. "...Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar", - deyən Həsən bəy bu işlə çox böyük və məsuliyyətli bir işə imza atdı və bu imza Azərbaycanın tarixində yeni bir səhifəni açmış oldu. "...zəmanə dəyişilib. İndi güc və igidlik əyyamı deyil, elm əyyamıdır"- deyərək milləti elmin qapılarını açmağa çağırdı. Azərbaycan xalqının maariflənməsi, elmə və təhsilə yiyələnməsi Həsən bəy Zərdabini daim narahat etdiyindən, o, bu məsələyə geniş məkandan yanaşaraq, müqayisələr aparır və oxucuların bu haqda təfsilatı ilə məlumatlandırırdı. Qəzetin "Daxiliyyə" bölməsində yazılan məqalələrdən birində dünya ölkələrində, eləcə də Azərbaycanda təhsil alan uşaqların sayı barədə məlumat verərək yazır ki, Rusiya dövlətinin 80 milyon xalqından bir milyon məktəbxanalarda oxuyan şagirdləri var: "Amma qeyri vilayətlərdə, məsələn, Yeni Dünya, yəni Amerika qitəsində cəmahiri-müttəfiqə yerlərində hər 15 adamdan birisi oxuyur. Pəs Rusiya elm təhsil etməkdə qeyri millətlərdən geri qalıb. Bu axır zaman on illik müddətində Rusiya oxumaqda çox tərəqqi edib... Bizim quberniyada bircə Badkubə gimnaziyası var ki, onda 500 oxuyan, o cümlədən, 250-si rus, 150-si erməni və 100-ü müsəlmandır. 33 zikr olan müsəlmanlardan padşahlıq xərci ilə pansionda oxuyur, baqisi öz xərcləri ilə oxuyurlar. O cümlədən, 30-acan Badkubə əhlidir ki, əvvəlinci klassa girbidirlər, rus dili öyrənib sonra öz dadistədlərinə məşğul olsunlar. Əlbəttə, onları elm təhsil edən hesab etmək olmaz. Pəs bizim məktəbxanalarımızda oxuyanlar rus, erməni və qeyri millətlərdirlər. Biz müsəlmanlar elmdən vəba naxoşluğundan qaçan kimi qaçırıq, hətta padşahlıq xərci ilə də oxumaq istəmirik..."

Həsən bəy çox böyük təəssüf hissi ilə "Ey müsəlmanlar, heç mürüvvətdirmi ki, tamam dünya bizim qonşularımız ilə belə elm təhsil etməyə səy etsinlər ki, zindəganlıq cəngində düşmənə faiq gəlsinlər, amma bizlər "Allahdan buyuruq, ağzıma quyruq" deyib duraq?"-deyərək ən böyük dərd içində ağrıacını yaşıyır və nicatın təhsildən başladığını gözəl bilirdi. Bu haqda yazdıqca ürəyi boşalmırdı.

## "ƏKİNÇİ" BİR QARANQUŞ KİMİ İLK MİLLİ MƏTBUATIMIZIN TARİXİNİ YAZDI

"Əkinçi"yə qədər azərbaycanlılar dünya haqqında məlumatı və yeni xəbərləri əsasən əlyazma səyahətnamələrdən, uzaq ellərdən gələn qasidlərdən, xarici səfirlərdən, tacirlərdən və s. alırdılar. Qəzetin "Əkin və ziraət xəbərləri", "Elm xəbərləri", "Məktubat" və s bölmələrində artıq oxucular qəzet vasitəsilə daxili və xarici xəbərləri əldə edə bilirdilər. Çox çətinliklə də olsa, Həsən bəy dünyada baş verənləri qəzetin səhifələrində işıqlandırırdı. Oxucunu siyasi cəhətdən maarifləndirmək məqsədilə "Əkinçi" İngiltərə, Fransa, Rusiya kimi böyük dövlətlərdə belə baş verən ictimai-siyasi hadisələri qəzetin səhifələrinə gətirir. Məsələn, "Təzə xəbərlər" bölməsinin nömrələrində yazır: "İstanbuldan "Birjevoy vedomosti" qəzetinə yazırlar ki, Qerdseqovinə buntu aşkar olan zaman Osmanlı dövləti ona məhəl qoymurdu, elə ki, xəbər gəldi ki, ətrafda olan xaçpərəstlər kömək edirlər və bu işdə slavyan millətinin birləşməyə qəsdi var və slavyanların başçısı Rus dövləti onların tərəfini saxlayacaqdır, ol vaxtda Asiya və Afrika qitələrindən əsgərləri İstanbula gətirib, gəmi ilə Qerdseqovinəyə göndərdilər". Daha sonra qəzet yazır... Tehrandan "İndipendans Belği" qəzetinə yazırlar ki, bu il şah Şiraza getmək istəyir idi, amma getmədi. Ona binaən ki, orada aclıq var. Bu sözləri yazan deyir". Bu və ya digər məqalələrdə ictimai-siyasi məzmun daşıyan məqalələrə yer verir.

Millət və xalq üçün səsini ucaldan və qəzetin hər səhifəsində maarifpərvər ideyalarını ortaya qoyan Zərdabi böyük bir məktəb yaratmış oldu. "Əkinçi" onlar üçün xalqa təmənnasız və sədaqətlə xidmətin, ideyalılığın, ictimai və milli zülmə qarşı mübarizənin, dünya elminin nailiyyətlərini yaymağın, prinsipial, demokratik mətbuatı inkişaf etdirməyin ilhamverici, gözəl nümunəsinə çevrildi. Özündən sonra gələn Azərbaycan mətbuatının nümayəndələri bu məktəbdən bəhrələndi və yeni məktəblər meydana çıxdı. Hətta elə bir mühit yetişdi ki, 1906-cı ildə "Molla Nəsirəddin" kimi, böyük bir satirik jurnal meydana çıxdı. Beləliklə də, Azərbaycan mətbuatında satirik jurnalistikanın da əsası qoyulmuş oldu. Bununla yanaşı, "Fyuzat" ədəbi məktəbi yaradıldı. Ona görə də, tam cəsarətlə demək olar ki, 1900-cü illərdə fəaliyyət göstərən mətbuat orqanlarının böyük əksəriyyəti millətə xidmət edən, milli müstəqilliyə çağırış notları ilə çap edilən bu qəzetlərin hər biri bir məktəb rolundadır və "Əkinçi" bir qaranquş kimi ilk milli mətbuatımızın tarixini yazmış oldu.

## AZƏRBAYCAN MƏTBUATI "ƏKİNÇİ" ƏNƏNƏLƏRİNDƏN BƏHRƏLƏNİR

Azərbaycan müstəqilliyini qazandıqdan sonra yeni demokratik mətbuatımız azadlıq və müstəqillik dəyərlərinin təbliğçisinə çevrildi. 1993-cü ildən başlayaraq KİV-in inkişafında əldə olunmuş nailiyyətlər Ümummilli Liderin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu Öndər Heydər Əliyevin milli mətbuata olan münasibəti və qayğısı nəticəsində formalaşma və inkişaf prosesində bir sıra təbii və süni maneələrlə üzləşmiş azad, demokratik mətbuatımız cəmiyyətin operativ, obyektiv informasiyaya tələbatını cavablandırmağa nail oldu. Ulu Öndər Heydər Əliyev KİV-in maddi-texniki bazasının yeniləşdirilməsi və möhkəmləndirilməsi, sərbəst fəaliyyət üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl, məqsədyönlü tədbirlər milli mətbuatımızın tarixinin mühüm faktlarıdır. Jurnalistlərin dostu adını qazanmış Ulu Öndər Heydər Əliyev böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ildə isə, bütövlükdə KİV üzərində dövlət senzurasını ləğv etdi. Dahi Öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Bu Fərman kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasına tam şərait var. 2005-ci il 21 iyul tarixində "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", habelə "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamların imzalanması jurnalistlərin əməyinə yüksək qiymətin təzahürüdür. Prezident İlham Əliyevin 2008-ci il 31 iyul tarixli "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında", eləcə də "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamları ilə təsdiqləyib ki, ölkəmizdə mətbuata göstərilən dövlət qayğısı davamlı və sistemli səciyyə daşıyır. Dövlət başçısının 2009-cu il 3 aprel tarixli "Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında" Sərəncamı da, məhz konsepsiyada əksini tapmış məsələlərin praktik surətdə gerçəkləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu gün müstəqil Azərbaycan dövləti hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır. Azərbaycan mediası bu inkişafın ön sıralarında qərar tutmaqdadır. Bu gün artıq mətbuatımızın 141-ci ildönümü ərəfəsindəyik. Böyük bir tarixi yol keçən milli mətbuatımızın həyatımızda çox böyük rolu var. Mətbuat demokratik prinsiplərin əhatə olunmasında ən başlıca vasitədir.

Mətbuat işçilərinə göstərilən diqqət jurnalistlərin üzərinə böyük məsuliyyət qoyur. Hər bir mətbuat işçisi istənilən vəziyyətdə məsuliyyət hissini unutmamalıdırlar.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Konstitusiyaya dəyişikliklər bir çox sahədə yeni keyfiyyət mərhələsi yaradacaq

***Qlobal iqtisadiyyatda və maliyyə bazarında cərəyan edən hadisələrdən sonra Azərbaycan iqtisadiyyatında da yeni keyfiyyət dəyişiklikləri baş verdi və bütövlükdə, milli maraqlarımızı müdafiə edəcək yeni iqtisadi əsasların formalaşması üçün müvafiq şərtlər yarandı. Buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafına nail olunması və ölkə iqtisadiyyatına yeni dinamizm qazandırılması üçün silsilə tədbirlər həyata keçirildi. Prezident İlham Əliyev bəyan etdi ki, 2016-cı il dərin islahatlar ili olacaq. İyulun 18-də isə Prezident İlham Əliyevin Sərəncamına əsasən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edildi. Bu layihədə əksini tapan məsələlər sahibkarlıq, insan hüquqları, təhlükəsizlik, idarəetmə və digər sahələrdə müasir dövrün çağırışlarına cavab verən islahatların həyata keçirilməsini təmin edəcək. Bu, sadalanan istiqamətlərdə yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olacaq.***

## Milli təhlükəsizliyimizi təhdid edə biləcək birliklərin yaranmasına konstitusion qadağa gələcək

İlk növbədə qeyd edək ki, layihədə təhlükəsizlik məsələlərindən bəhs edilib. Qeyd edilib ki, 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin: "Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır".

Milli dövlətin təhlükəsizliyinin təmin edilməsi üçün hazırkı mərhələdə müvafiq tədbirlərin həyata keçirilməsi zəruri və prioritetdir. Nəzərə alsaq ki, hazırda regionda və dünyada olduqca mürəkkəb proseslər baş verir və bunlar milli dövlətlərin mövcudluğuna ciddi təhdidlər yaradır, o zaman qeyd edə bilərik ki, Referendum Aktının layihəsində təhlükəsizlik məsələlərinin yer alması milli dövlətimizin təhlükəsizliyinin təmin olunması baxımından böyük əhəmiyyət daşıyır.

## Hüquqdan sui-istifadələrin qarşısı alınacaq

Məlumdur ki, Azərbaycan hüquqi dövlətdir və ölkə Konstitusiyasının üçdə biri insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunub. Amma o da məlumdur ki, hazırkı mərhələdə bir sıra hallarda hüquqdan sui-istifadə edilməsi halları müşahidə edilir. Bu, təkcə vətəndaşlar səviyyəsində baş vermir, bu cür hallara milli dövlətlərin iradəsinə hüquqdan sui-istifadə edərək təzyiq göstərən ayrı-ayrı mərkəzlər tərəfindən də yol verilir. Məhz belə bir maddənin Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapması hüquqi cəmiyyətin inkişafına töhfə verəcək, həm də dövlətin hüquq sistemini yeni keyfiyyət mərhələsinə daşıyacaq.

## Sahibkarlar sosial öhdəçiliyin subyektinə çevrilməklə sosial dövlət fəlsəfəsinə xidmət edəcəklər

Referendum Aktının layihəsində yer alan vacib məsələlərdən biri də mülkiyyətlə bağlıdır. Məlumdur ki, bəzi hallarda mülkiyyət sahiblərinin davranışları və fəaliyyəti Azərbaycanın sosial dövlət fəlsəfəsinə uyğun gəlmir. Bir çox hallarda mülkiyyətçilər və ya sahibkarlar sahib olduqları mülkiyyətdən səmərəli istifadə olunmasında maraqlı olmur, ya da inhisarçı və istismarçı mövqedə dururlar. Bu isə Azərbaycanın ümumi iqtisadi maraqlarına cavab vermir. Belə olan halda, bu cür məsələlərin tənzimlənməsi zərurəti ortaya çıxır. Bununla yanaşı, sahibkarlıq subyektlərinin müxtəlif sosial layihələrdə iştirak etməsi məsələsi də vacibdir. Yəni sahibkarlar, xüsusi mülkiyyətçilər öz sosial öhdəliklərini dərk etməlidirlər.



***Hikmət BABAOĞLU***
***Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru***

Layihədə Konstitusiyanın 29-cu maddəsində V və VI hissələrə müvafiq olaraq hissəyə "Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur", "Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər" məzmunlu cümlələrin əlavə edilməsi qeyd edilib. Ümummilli sərvət olan torpaqlardan səmərəli istifadə çox aktualdır. Hazırkı mərhələdə ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasına dair Dövlət proqramları həyata keçirilir və bu sahədə təhlükəsizliyin təmin edilməsi üçün torpaq ehtiyatları əsas baza rolunu oynayır. Bu səbəbdən torpaqlardan səmərəli istifadə edilməsi məsələsi müstəsna əhəmiyyət kəsb edir. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququnun qanunla məhdudlaşdırılması da məhz bu çağırışlardan irəli gəlir.

## Yeni maddələr məhkəmə süründürməçiliyinə son qoyacaq, ədalətli mühakiməni təmin edəcək

Referendum Aktının layihəsində əksini tapan digər məsələ məhkəmələrlə bağlıdır. Biz bilirik ki, hakimiyyətin üç müstəqil qolundan biri nəzarətedici hakimiyyət, yəni məhkəmə institutudur və məhkəmələrin ədalətli olması bu institutun həm ictimai nüfuzunu artırır, həm də cəmiyyətdəki münasibətlərin məhz ədalət prinsipi əsasında tənzimlənməsini təmin edir. Referendum Aktının layihəsində qeyd edilib ki, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşsınlar və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. Bu, məhkəmə hakimiyyətinin daha operativ, effektiv və ədalətli olmasını təmin edəcək maddələrdən biridir və bu cür yanaşma məhkəmə-hüquq sistemində yeni keyfiyyət dəyişikliyi yaradacaq.

## Vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda idarəetməni yeni və olduqca vacib keyfiyyət mərhələsinə daşıyacaq

Azərbaycan prezidentli respublikadır, bəzi hallarda bir-birini təkrar edən müəyyən idarəetmə strukturları var. Prezident üsul-idarə sisteminin mövcud olduğu bir sıra ölkələrdə ölkə prezidenti 7 il müddətinə seçilir və ali icraedici hakimiyyətin başçısı kimi özünə birinci vitse-prezident və vitse-prezidentlər təyin etmək hüququ var. Bu sistem idarəetmədə yeni çevik, effektiv keyfiyyət yaradır. Ona görə də vitse-prezidentlik institutunun yaradılması Azərbaycanda idarəetmə sahəsində yeni və olduqca vacib hadisədir. Layihədə əks olunmuş təklifə əsasən, Azərbaycan Respublikasının birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər. Eyni zamanda, layihədə Konstitusiyaya "Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir" məzmunlu cümlənin əlavə edilməsi də qeyd edilib. Beləliklə, Azərbaycanda yeni effektiv, optimal idarəetmə institutu yaradılacaq. Prezidentlik institutu daha da güclənəcək və idarəetmədə yeni operativ və effektiv mərhələ başlayacaq.

## Milli Məclisin bəzi səlahiyyətlərinə məhdudiyyətlər gətirməklə hakimiyyət bölgüsü dəqiqləşəcək və idarəetmədə çeviklik yaranacaq

Referendum Aktının layihəsində əksini tapan məsələlərdən biri də Azərbaycan Respublikasının Milli Məclisi ilə bağlıdır. Layihədə qeyd edilib ki, Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda onlara üzvlüyə namizədləri iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

Müharibə şəraitində olan, ərazisinin 20 faizinin işğal altında olduğu bir ölkə üçün hakimiyyətin vahid bir mərkəzdə formalaşması olduqca vacib məsələlərdən biridir. Prezidentə bu səlahiyyətin verilməsi prezidentlik institutunu daha da möhkəmləndirməklə ölkənin təhlükəsizliyinin təmin olunmasına xidmət edəcək.

## 18 yaşına çatmış hər bir vətəndaş vətəndaşlıq hüququndan tam istifadə edəcək

Yeni müddəalarda seçkili orqanlarda və idarəetmədə təmsil olunmaq üçün yaş məhdudiyyəti ümumiyyətlə aradan qaldırılır. Bu zərurət ondan irəli gəlir ki, hazırda uzun illərin dövlət qayğısı sayəsində ölkəmizdə yeni intellektual gənc nəsil yetişib. Onların potensialından milli və dövlət maraqları üçün istifadə olunması dövrün aktual tələblərindən biridir. Ona görə də bu milli potensialdan səmərəli istifadə üçün hüquqi bazanın yenilənməsinə ehtiyac var idi.

Bütövlükdə, Referendum Aktının layihəsində vətəndaşları maraqlandıran çoxsaylı məsələlər (insan ləyaqətinin qorunması, özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ, bələdiyyələrin məsuliyyəti, fiziki və əqli qüsurlu şəxslərin hüquqlarının Konstitusiyada təsbit olunması, tanınması, bank-maliyyə sisteminin idarə olunması və sair) əks olunub. Bu layihə geniş spektri əhatə etməklə özündə ən aktual məsələləri cəmləşdirir, dərin islahatlar ili kimi xarakterizə edilən 2016-cı ildə bəhs olunan sahələrdə yeni keyfiyyət dəyişiklikləri yaratmaqla daha çevik və effektiv idarəetməni təmin edəcək ki, bu da ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcı olacaq.



## TQDK xəbərdarlıq etdi

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ümumi orta təhsil bazasında (9 illik) orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) qəbul olunanlara xəbərdarlıq edib. Komissiyadan SİA-ya verilən xəbərə görə, kolleclərə qəbul olunan şəxslər iyulun 21-dən 29-dək tələb olunan sənədləri təqdim etməklə qəbul olunduqları təhsil müəssisəsində qeydiyyatdan keçməlidirlər. Abituriyentin göstərilən müddətdə qeydiyyatdan keçməməsi onun müvafiq ixtisasa yerləşdirilməkdən imtina etməsi kimi qiymətləndiriləcək və o, qəbul olunanlar siyahısından xaric ediləcək.

# Milli mətbuatın 141 illiyinə həsr olunmuş fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri açıqlandı

***İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Milli Mətbuatın 141 illiyi münasibətilə elan etdiyi fərdi jurnalist yazıları müsabiqəsinin yekunlarına və qaliblərin mükafatlandırılmasına həsr olunmuş tədbir keçirildi.***

Tədbirdə fondun icraçı direktoru Vüqar Səfərli, Müşahidə Şurasının üzvləri, habelə ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, yazıları qiymətləndirmiş ekspertlər və müsabiqədə qalib olmuş jurnalistlər iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan fondun icraçı direktoru Vüqar Səfərli media nümayəndələrini milli mətbuatın yaranmasının 141 illiyi münasibətilə təbrik edərək, onlara yeni-yeni yaradıcılıq uğurları arzuladı. Ölkədə söz, fikir və mətbuat azadlıqlarının təminatı sahəsində ardıcıl tədbirlərin həyata keçirildiyini deyən icraçı direktor fondun təşkil etdiyi müsabiqələrin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, onların yaradıcı əməyinin stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini diqqətə çəkdi.



V.Səfərli mayın 26-dan iyulun 12-dək davam edən müsabiqəyə 70 kütləvi informasiya vasitəsindən 167 yazının təqdim edildiyini, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini bildirdi. İcraçı direktor fondun Müşahidə Şurasının iclasında ekspertlərin balları əsasında 114 nəfər jurnalistin qalib elan edildiyini diqqətə çatdırıb. O, müsabiqədə hər istiqamət üzrə I yer üçün 500 manat olmaqla 1, II yer üçün 400 manat olmaqla 2, III yer üçün 300 manat olmaqla 3 mükafatın nəzərdə tutulduğunu bildirdi.

Sonra yazı müsabiqəsinin ekspertlərinin fikirləri dinlənildi. Fondun ekspertlərindən olan "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid müsabiqəyə təqdim olunan yazıların yüksək qiymətləndirdiyini bildirərək, jurnalist peşəsinə tələbkar yanaşmağı, daha obrazlı şəkildə yazılmasını, eyni zamanda mövzuya yanaşarkən fərqliliyi və obrazlılığı nəzər almağı diqqətə çəkdi. R.Məcidov təqdim olunan 114 mükafatdan 3 bölgə müxbirinin 1-ci yerin qalib olmasını sevindirici hal olduğunu qeyd etdi.

BDU-nun professoru Cahangir Məmmədli, Mətbuat Şurasını sədr müavini Müşfiq Ələsgərli çıxışlarında müsabiqələrə təqdim edilmiş yazılar barədə fikir və rəylərini bildirdilər. Ekspertlər çıxışlarında ölkə jurnalistlərinə fondun təşkil etdiyi müsabiqələrə daha yaradıcı yanaşmağı, tədqiqatlara və analitik mövzulara, eləcə də fərdi və orijinal yazı üslubuna üstünlük verməyi tövsiyə etdilər.

Sonda müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirildi, 2 və 3-cü yerin qalibləri mükafatlandırıldı və 1-ci yerin qaliblərinin adları açıqlanaraq, 22 İyul Milli Mətbuat Günündə mükafatlandırılacağı bildirildi.

***ZÜMRÜD***

# Qaradağ rayon icra hakimiyyəti Milli Mətbuat Günü ilə bağlı jurnalistlərlə görüş keçirib

***Dünən Qaradağ rayon icra hakimiyyətində 22 İyul Milli Mətbuat Günü münasibətilə tədbir-görüş keçirilib. Tədbirdə Qaradağ rayon icra hakimiyyətinin başçısı Süleyman Mikayılov çıxış edərək media nümayəndələrini Milli Mətbuat Günü münasibəti ilə təbrik etdi, onlara bu şərəfli yolda uğurlar arzuladı. S.Mikayılov Azərbaycan Milli Mətbuatının artıq 141 illik yol keçdiyini və bu yolun böyük və şərəfli olduğunu, bütün dövrlərdə qabaqcıl ideyaların carçısı olduğunu vurğuladı.***



Qaradağ rayon icra hakimiyyətinin başçıs onu da qeyd etdi ki, Azərbaycan mətbuatı 141 ilə yaxın bir zaman məsafəsi keçərək formalaşmışdır: "Azərbaycan mətbuatının sürətli inkişafı isə respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxarmışdır. Hazırda hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 5000-ə yaxın müxtəlif kütləvi informasiya vasitəsi - qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri qeydiyyata alınmışdır. Son 12 ildə Ulu Öndər Heydər Əliyev siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının inkişafını respublikanın demokratikləşməsi prosesinin vacib amili kimi dəyərləndirir. Dövlət başçısı respublikada mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə bütün imkanların yaradılmasının tərəfdarıdır".

S.Mikayılov onu da vurğuladı ki, mətbuatımız gündən-günə inkişaf edir: "Xüsusi vurğulamaq lazımdır ki, mətbuat işçiləri üçün dövlət hesabına yeni mənzillərin verilməsi və inşası dünya miqyasında analoqu olmayan bir addımdır. Bu, Azərbaycan Prezidentinin kütləvi informasiya vasitələrinə, jurnalist əməyinə verdiyi yüksək qiymətin göstəricisidir". Mətbuat nümayəndələrini Milli Mətbuat Günü münasibətilə təbrik edən S.Mikayılov onlara yeni-yeni yaradıcılıq uğurları arzuladı.

Sonda Qaradağ rayon icra hakimiyyəti Milli Mətbuat Günü münasibətilə jurnalistlərə mükafatlar təqdim etdi.

***R.HÜSEYNOVA***

# Müdafiə Nazirliyi Azərbaycanda xarici ölkənin hərbi bazasının yaradılması haqda məlumatı təkzib etdi




***Bəzi kütləvi informasiya vasitələrində guya Azərbaycan ərazisində Türkiyə Silahlı Qüvvələrinin hərbi bazasının yaradılması barədə yayılan məlumatlara aydınlıq gətirən Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı, general-leytenant Ramiz Tahirov AZƏRTAC-a deyib: "Azərbaycan ərazisində hər hansı bir ölkənin hərbi bazasının yaradılması barədə mətbuatda yayılan məlumatların heç bir əsası yoxdur və bu, həqiqətə uyğun deyil.***

Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki aerodromdan hələ 1999-cu ildən beynəlxalq sülhməramlı missiyada iştirak edən hərbi qulluqçularımızın Kosovo, İraq və Əfqanıstana yola salınması üçün istifadə edilir. Burada yerləşən bir terminalda təyyarələrə texniki xidmət göstərən personal və pilotlar üçün istirahət otaqları nəzərdə tutulub.

Qeyd edim ki, Azərbaycan sülhməramlılarının Əfqanıstana aparılması və oradan gətirilməsi Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus nəqliyyat təyyarələri ilə həyata keçirilir. Təyyarə aerodroma enməzdən 1 saat əvvəl Türkiyə hərbi attaşeliyi aparatının nümayəndəsi tərəfindən buradakı 2 otaq açılır. Təyyarə aerodromda olarkən ona texniki qulluq göstərilməsi, yanacaqla təchiz olunması və digər prosedurlar icra edilən zaman pilotların qısamüddətli istirahəti bu otaqlarda təmin edilir. Təyyarə yola düşdükdən sonra isə otaqlar bağlanır, Azərbaycan tərəfinə təhvil verilir, mühafizəyə götürülür və Türkiyə hərbi attaşeliyi aparatının nümayəndələri ərazini tərk edirlər. Təsdiq edilmiş Protokola əsasən, hələ keçən əsrin 90-cı illərindən ölkəmizdə fəaliyyət göstərən və "Qızıl Şərq" hərbi şəhərciyi ərazisində yerləşən bina Türkiyənin ölkəmizdəki hərbi attaşelik aparatına icarə qismində müvəqqəti istifadəyə verilib. Bu protokol həmin tikilidə icarəçi tərəfindən təmir-bərpa işlərinin aparılması üçün hüquqi imkan yaradır".

# Sahibə Qafarova: "Azərbaycanın mövcud reallıqları Konstitusiyaya dəyişikliklər etməyi şərtləndirir"

***"Azərbaycan dövləti sürətlə inkişaf edir, beynəlxalq aləmə inteqrasiya edir, ölkə qanunvericiliyi təkmilləşdirilir, vətəndaşların sosial şərtləri dəyişir. Ona görə də Konstitusiyada da dəyişikliklər etmək zərurəti yaranır". Bu fikirləri yap.org.az saytına Milli Məclisin deputatı, Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, qaçqın və məcburi köçkünlər üzrə komitəsinin sədri Sahibə Qafarova deyib.***



Onun sözlərinə görə, ana qanunumuza təklif olunan dəyişikliklər zamanın tələbindən irəli gəlir. S.Qafarova deyib ki, bütün demokratik ölkələrdə də belə təşəbbüslər irəli sürülür, ehtiyac yarandığı təqdirdə Konstitusiyaya dəyişikliklər olunur: "Bu gün isə Azərbaycanın mövcud reallıqları Konstitusiyaya dəyişikliklər etməyi şərtləndirir və dövlətimizin başçısı haqlı olaraq belə bir Sərəncam imzalayıb. Möhtərəm Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, 2016-cı il Azərbaycanda dərin islahatlar ili olmalıdır. Təbii ki, bu islahatlar bir çox sahələri əhatə edir. İqtisadi tsahədə verilən qərarlar, aparılan islahatlar artıq öz nəticələrini verib və dünyada baş verən qlobal iqtisadi kataklizmlər fonunda belə bu ilin ilk 6 ayı ərzində Azərbaycan öz iqtisadi inkişaf dinamikasını qoruyub saxlaya bilib. Eləcə də digər sahələrdə, o cümlədən idarəetmənin təkmilləşdirilməsi istiqamətində çox ciddi addımlar atılıb. Konstitusiyaya təklif olunan yeni dəyişikliklərdə də bu istiqamətlərdə daha geniş uğurların əldə olunması hədəflənib".

Sahibə Qafarova təklif olunan dəyişikliklərdə bir çox məsələlərin yer aldığını vurğulayaraq qeyd edib ki, bu dəyişikliklər idarəetmənin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, xüsusi mülkiyyət, sosial məsuliyyət və sosial ədalət, hüquq və azadlıqların inzibati və məhkəmə təminatı və digər məsələlər öz əksini tapıb: "Hesab edirəm ki, bu dəyişikliklər Azərbaycan vətəndaşlarının maraqlarına tam cavab verməklə yanaşı, yeni mərhələdə Azərbaycan dövlətinin inkişafının ardıcıllığının təmin olunmasına xidmət edir".

# Daşkəsən özünün sürətli inkişaf dövrünü yaşayır

*Rayonda 2016-cı ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunları ilə bağlı ümumrayon yığıncağı keçirilib*





***Dünən Daşkəsən rayonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2016-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı nitqindən irəli gələn məsələlərlə bağlı ümumrayon toplantısı keçirilib.***

Toplantıda çıxış edən Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev bildirib ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2016-cı ilin birinci yarısında bir çox işlər görülmüş və nailiyyətlər əldə olunmuşdur: "İqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilə nisbətən müxtəlif sahələr üzrə xeyli artmışdır. Yeni yaradılmış kənd təsərrüfatı idarəsinin inzibati binasında, Alunitdağ qəsəbəsində 35/6 kv-luq elektrik yarımstansiyasında son tamamlama işləri görülür. Quşçu həkim məntəqəsində, Zinzahal kənd klubunda və Əhmədli kənd Mədəniyyət Evində təmir işləri aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında Daşkəsən şəhərində, Daşkəsən qəsəbəsində və Qabaqtəpə kəndində Qarabağ Müharibəsi Əlilləri və Şəhid Ailələri üçün 3 fərdi yaşayış evinin tikintisinə başlanılmış və hazırda tikinti işləri davam etdirilir. Daşkəsən şəhərində Qarabağ Müharibəsi Əlilləri və Şəhid Ailələri üçün yeni 36 mənzilli yaşayış binasının tikintisi üçün torpaq sahəsi ayrılmış, tezliklə həmin binanın tikintisinə başlanılacaqdır".

Rayon rəhbəri yaxın gələcəkdə də Daşkəsən rayonunda yeni müəssisələrin yaradılması və bir sıra irimiqyaslı tikinti, təmir - bərpa işlərinin həyata keçirilməsinin nəzərdə tutulduğunu da vurğulayıb. "Daşkəsən özünün sürətli dövrünü yaşayır" -deyən Ə.Abıyev onu da qeyd edib ki, rayonda 2 kartofçuluq, 2 taxılçılıq üzrə toxumçuluq təsərrüfatı, 1 damazlıq arıçılıq və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir: "Gələcəkdə toxumçuluq və damazlıq təsərrüfatlarının artırılması üçün işlər aparılır. 2016-cı ilin məhsulu üçün 641 ha sahəyə taxıl səpilmişdir. Heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə 5 kənddə süni mayalama məntəqələri fəaliyyət göstərir". Ə.Abıyev onu da vurğulayıb ki, Azərbaycan Respublikasının Metallurgiya Kompleksində sağlamlaşdırma və restrukturizasiya tədbirlərinin həyata keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin 13 iyul 2016-cı il tarixli Sərəncamına əsasən, Azərbaycan Polad İstehsalı Kompleksinə daxil edilmiş "Daşkəsən Filizsaflaşdırma" Açıq Səhmdar Cəmiyyəti özəlləşdirməyə açıq elan edilmiş və bu məqsədlə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sərəncamına verilmişdir: "Eyni zamanda, rayonda "ASAN xidmət" səyyar xidmət göstərir. Bu gün "ASAN xidmət"in xidmətlərindən 3249 nəfər yararlanmışdır. "ASAN xidmət"in xidmətlərindən istifadə edən Daşkəsən rayon sakinləri onlara göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə öz minnətdarlıqlarını bildirirlər".

Toplantıda əldə olunmuş nailiyyətlərlə yanaşı, həmçinin, həllini gözləyən digər problemlər və onların aradan qaldırılması yolları müzakirə olunub.

Tədbirdə rayon kənd təsərrüfatı idarəsinin müdiri Şahbaz Mehdiyev, RİHB-nin şəhər İƏDÜN-ü Nüsrət Vəliyev, rayon gənclər və idman idarəsinin rəisi Samir Həsənov çıxış edərək daşkəsənlilərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Yığıncağın sonunda gündəlikdəki məsələ ilə əlaqədar qərar layihəsi oxunub, toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunubdur.

**RƏFİQƏ KAMALQIZI**

# BANM-in tələbələri SOCAR-ın müəssisələrində təcrübə keçirlər



***Bakı Ali Neft Məktəbinin (BANM) neft-qaz mühəndisliyi, kimya mühəndisliyi və proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələri Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) bir sıra müəssisələrində ödənişli və ödənişsiz əsaslarla yay istehsalat təcrübəsi keçirlər.***

BANM-dən AZƏRTAC-a bildiriblər ki, təcrübə zamanı tələbələr komanda işi ilə tanış olur, ən son avadanlıq və texnologiyalardan istifadə etməklə müəssisələrin yüksək ixtisaslı, təcrübəli mütəxəssisləri ilə birlikdə müxtəlif layihə və əməliyyatlar həyata keçirirlər. Eyni zamanda, təcrübəçilər müxtəlif iş sahələrinə və obyektlərə səfər edir, istehsalat müəssisələrində iş prosesi, yataqların işlənməsi və neft-qaz hasilatı texnologiyaları ilə tanış olur, müasir cihaz və avadanlıqların iş prinsipi, quyuların qazılması və tamamlanması prosesi kimi, qazma məhlulları texnologiyası, avadanlığın quraşdırılması, keyfiyyətə zəmanət və digər istehsalat prosesləri barədə biliklər əldə edirlər. Tələbələr mütəxəssislər tərəfindən əməyin təhlükəsizliyi və ətraf mühit məsələlərinə dair təlimatlar alır, vaxtlarının səmərəli və əyləncəli təşkil olunması üçün komanda oyunları keçirirlər. BANM-in rektoru Elmar Qasımov təcrübə müəssisələrində tələbələrin fəaliyyəti ilə tanış olub, onlara verilən imkanlardan səmərəli faydalanmağı tövsiyə edib. Sonda tələbələrin təcrübələri barədə hazırlayacaqları təqdimatlar qrup rəhbərləri tərəfindən qiymətləndiriləcək.

# Həsən bəy Zərdabinin media ictimaiyyətinin diqqətindən kənarda qalmış büstü ziyarət olunub



***İyulun 21-də "Sputnik" Beynəlxalq İnformasiya Agentliyi və Radiosunun təşəbbüsü ilə bu media qurumunun təmsilçiləri və Azərbaycan Mətbuat Şurası rəhbərliyi milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin Milli Elmlər Akademiyasının Mərkəzi Nəbatat Bağında yerləşən və bu vaxta kimi ölkənin media ictimaiyyətinin diqqətindən kənarda qalmış büstünü ziyarət edib. Media nümayəndələri büstün ətrafında abadlıq işləri aparıb, üzərinə əklil qoyublar.***

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov böyük maarifçi Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə əsasını qoyduğu "Əkinçi" qəzetinin Azərbaycanın mətbuat və ümumilikdə, ictimai fikir tarixində oynadığı rola diqqət çəkib. O bildirib ki, 1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər nəşr edilən "Əkinçi" qəzetinin ümumilikdə, 56 sayı işıq üzü görsə də, bu, Azərbaycanda sonradan milli qəzetlərin yaranmasına böyük təkan verib. "Əkinçi"dən sonra maarifçilik ideyalarını təbliğ edən "Kəşkül" və "Ziya", "Kaspi", "Şərqi-rus", "Molla Nəsrəddin" kimi qəzet, jurnallar yaranıb. "Hazırda Azərbaycan mətbuatı azad və sərbəst şəkildə inkişaf edir. Ulu Öndər Heydər Əliyevin mətbuat üzərindən senzuranı götürməsi tarixi hadisə olmaqla yanaşı, demokratik mətbuatın inkişafına təkan verib. Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir" - deyə Ə.Amaşov vurğulayıb.

"Sputnik" agentliyinin rəhbəri Əziz Əliyev çıxışında bildirib ki, Həsən bəy Zərdabi Azərbaycan mətbuatının banisi olmaqla yanaşı, ölkənin ilk maarifçilərindən biri kimi tarixdə dərin iz buraxıb. "Sabah Azərbaycanın bütün media strukturları peşə bayramlarını qeyd edəcək. Bu səbəbdən, "Sputnik" Beynəlxalq İnformasiya Agentliyi Mətbuat Şurası ilə birgə Azərbaycan jurnalistikasının banisi Həsən bəy Zərdabinin xatirəsini yad etdi, dahi mütəfəkkirin ruhuna ehtiramını bildirdi. Zərdabinin irsi indi Azərbaycanda mövcud olan azad və demokratik jurnalistikaya təkan verib. Biz beynəlxalq agentlik olmaqla yanaşı, həm də Azərbaycan media məkanının bir parçasıyıq və milli mətbuatımızın yarandığı əlamətdar günü xüsusi şəkildə qeyd etməliyik", -deyən Ə.Əliyev rəhbərlik etdiyi media qurumunun mətbuatın inkişafına töhfə verəcək analoji tədbirlərinin davamlı olacağına əminliyini bildirib.

**NƏZAKƏT**

# "Azərbaycan Dəmir Yolları" QSC ilə "Siemens" arasında əlaqələr genişlənir



***"Azərbaycan Dəmir Yolları" QSC ilə Almaniyanın "Siemens" şirkəti arasında əlaqələrin dərin kökləri var. Hələ 2001-2003-cü illərdə bu şirkət Bakı-Böyük Kəsik dəmir yolu arasında fibro-optik rabitə sisteminin çəkilməsini həyata keçirib. Həmin əlaqələr indi də davam edir.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən bildirilib ki, bu fikirlər "Azərbaycan Dəmir Yolları"nda Almaniyanın "Siemens" şirkətinin magistral nəqliyyat və satış üzrə rəhbəri Vilyam Vilsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə səsləndirilib.

QSC-nin sədri Cavid Qurbanov Azərbaycan Dəmir Yolunda həyata keçirilən islahatlar, "Şərq-Qərb" və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizlərinin reallaşdırılması istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məlumat verib. Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC ilə tanışlıq, strateji əməkdaşlıq imkanları müzakirə olunub. "Siemens"in magistral nəqliyyat və satış üzrə rəhbəri V.Vilson isə Azərbaycan Dəmir Yolunun beynəlxalq və regional nəqliyyat layihələrində aktiv iştirakından, aparılan islahatlardan məmnun qaldığını söyləyib. Görüşdə ikitərəfli əməkdaşlığın bundan sonra daha da genişləndirilməsi qərara alınıb. Sonra Almaniyanın "Siemens", "AZƏRSİS-Bakı" şirkətləri və "SİS-Minsk" şirkətlər qrupunun təşəbbüsü ilə "Azərbaycan Dəmir Yolları" QSC üçün birgünlük seminar keçirilib. Seminarın məqsədi mərkəzləşdirmə və bloklama sistemləri sahəsində layihələrin reallışdırılması, həmçinin kooperasiya imkanları məsələləri ilə tanışlıq olub. Seminarın gedişində mərkəzləşdirmə və bloklama sistemlərinin reallaşdırılması sahəsində mövcud imkanlarımız və ümumi konsepsiya, layihələndirmə və birgə fəaliyyət, ixrac proqramında iştirak məsələləri müzakirə edilib. Seminarın proqramı çərçivəsində rəhbər işçilər arasında danışıqlar aparılıb, texniki mütəxəssislərin təqdimatına baxış keçirilib, həmçinin dəyirmi masalar təşkil olunub. Xatırladaq ki, "Siemens" şirkəti dəmir yolu nəqliyyatı üçün lokomotiv, elektrikləşdirmə, həmçinin mərkəzləşdirmə və bloklama sistemlərinin istehsalı üzrə dünya lideridir. "SİS-Minsk" şirkətlər qrupu nəqliyyat sistemləri, elektrik enerjisi, avtomatlaşdırma və telekommunikasiya sahəsində MDB məkanında fəaliyyət göstərən iri sistem inteqratorudur.

# Fransa portalı: Azərbaycan orijinal turizm istiqamətidir

Fransanın “Tourmag” portalında “Azərbaycan - orijinal turizm istiqaməti” adlı məqalə yayılıb. Fransa Turizm Agentlikləri Milli Sindikatının (SNAV) Bakıda keçirilən ənənəvi illik konfransından sonra bu ölkənin turizm sahəsində ixtisaslaşmış agentlikləri ölkəmizin turizm imkanlarını təşviq edir. Məqalədə İl-de Frans regionunda fəaliyyət göstərən Turizm Müəssisələri Birliyinin prezidenti xanım Mişel Laje-Erbonun toplantı üçün Bakını seçməsinin təsadüfi olmadığı qeyd edilir. Mişel Laje-Erbonun əsas məqsədi turizm, konqreslər, motivasiyalar və işgüzar sahələr üçün əsl imkan və yeni istiqamət olan Bakını kəşf etmək olub. Yazıda Bakının möhtəşəm şəhər olduğu diqqətə çatdırılır. Xüsusilə, paytaxtımızın XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid memarlıq üslubunun turizm agentliklərinin nümayəndələrini heyran etdiyi bildirilir.

Müəllif Bakının bu gün tam təhlükəsiz yeni turist istiqaməti olduğunu vurğulayır. Müalicə turizmi ilə məşhur olan Naftalan şəhərindən, tarixi və mədəni abidələrimizdən, Qobustandan söz açır. Azərbaycan qastronomiyasının yüksək qiymətləndirildiyi məqalədə Gəncədə keçirilən Şərab Festivalından da bəhs edilir. Məqalənin müəllifi Azərbaycanın Fransadakı səfirliyinin iqtisadi və əməkdaşlıq üzrə müşaviri Elmar Məmmədovdan ölkə haqqında, onun tolerantlıq, multikulturalizm nümunəsi olması barədə daha geniş məlumat aldıqlarını bildirir. Yazıda turistlərə Bakını heç bir




şəhərlə müqayisə etməmək, gəlib onun özünəməxsus xüsusiyyətləri ilə tanış olmaq məsləhət görülür.

Xatırladaq ki, 70 fransalı turizm mütəxəssisinin iştirak etdiyi Bakı toplantısı çərçivəsində Fransada Azərbaycanın yeni turizm istiqaməti kimi təşviq edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi ilə Fransa Turizm Agentliklərinin Milli Sindikatı arasında anlaşma memorandumu imzalanıb.




# Kinematoqrafçılar İttifaqı müsabiqə ELAN EDİR

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı “YENİ NƏFƏS-II” adlı qısametrajlı ssenari müsabiqəsi elan edir.

**Məqsəd:**

Müsabiqə kinematoqrafiya sahəsində gənclərin yaradıcılıq fəaliyyətini inkişaf etdirmək, gənc və istedadlı müəllifləri aşkara çıxarmaq, həmçinin milli kinomuza yeni fikir, yeni nəfəs gətirmək məqsədi ilə keçirilir.

Müsabiqə həm də digər sahələrdə çalışan gənclərə, kinoda özlərini sınamaq imkanı yaratmaq və bununla da, mövcud rəqabəti gücləndirmək mövqeyi tutur.

**Şərtlər:**

· Yaşı 35-ə qədər olan bütün şəxslər müsabiqəyə ssenarisini təqdim edə bilər.

· Müsabiqəyə istənilən janrda, bədii, sənədli və animasiya ssenariləri qəbul olunur.

· Müsabiqəyə təqdim olunan ssenarinin hüquqları müəllifə məxsus olmalı, satılmamalı və çəkiliş dövründə olmamalıdır.

· Ssenari orijinal, yəni, ekranlaşdırılmamış olmalıdır.

· Qısametrajlı film üçün nəzərdə tutulmuş ssenarilər müsabiqəyə 20 səhifədən çox olmamaq şərti ilə, üç nüsxədə, çap olunmuş və CD diskdə rəqəmsal daşıyıcıda təqdim olunmalıdır.

· Şrift Courier New, ölçü 12 tələb olunur.

· Çap olunmuş ssenarilərdə müəllifin ad və soyadı qeyd olunmamalıdır.

· Müəllif ssenari ilə birgə tərcümeyi-halını da təqdim etməlidir.

· Hər bir müəllif 3 (üç) ssenaridən artıq təqdim edə bilməz.

· Müsabiqəyə təqdim olunan ssenarilər geri qaytarılmır.

· Ssenarilər 31 iyul 2016-cı il tarixinə kimi Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının ünvanına göndərilməlidir.

· Ünvan: Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı, Bakı şəh. Səməd Vurğun küç.43/ World Business Center 16-cı mərtəbə

**Qaydalar:**

Müsabiqənin peşəkar münsiflər heyətini Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı təyin edir. Münsiflər heyəti məxfi seçim nəticəsində dörd ssenarini qiymətləndirəcək. Qalib ssenarilər pul mükafatı və diplomla təltif olunacaq:

· Qran Pri - 3000 manat (Ekranlaşdırılması nəzərdə tutulub)




· I yer 2000 manat

· II yer 1500 manat

· III yer 1000 manat

Müsabiqənin nəticələri 2016-cı ilin sentyabr ayında açıqlanacaq.

***Əlaqə üçün: Tel: +99412 597-48-04***
***Fax: +99412 597-48-03***
***Mob: +99451 427-41-03***
***arki.2012@mail.ru***

İnformasiya dəstəyi:

“AZƏRTAC”, “Trend”, “Day.az”, “Səs”, “Mədəniyyət”, “Kaspi” qəzetləri

# Dövlət Komitəsi yeni qeydiyyatdan keçmiş 36 dini icmaya şəhadətnamə təqdim edib



*Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyatdan yeni keçmiş 36 dini icmaya şəhadətnamə verilib. Çıxış edən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı iştirakçılara ölkədəki dini durum barədə ətraflı məlumat verib. Bildirib ki, bu gün Azərbaycan tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyada örnək göstərilən ölkələrdəndir və bu uğurun baş memarı Ulu Öndər Heydər Əliyevdir.*



Məhz onun Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra, bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də sürətli inkişafa nail olundu, dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə, dinimizə uyğun qaydalar müəyyənləşdirildi. Ümummilli Liderin "Biz dini, ilk növbədə, mədəniyyətimizin, tarixi irsimizin, mentalitetimizin bir fenomeni və ayrılmaz hissəsi kimi qəbul edirik. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir" sözlərini xatırladan S.Salahlı dinə, dindarlara münasibəti əks etdirən bu tezisin hazırda Prezident İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini vurğulayıb.

Komitə sədrinin birinci müavini təəssüflə bildirib ki, dövlətin yüksək diqqət və qayğısının müqabilində bir sıra hallarda din xadimləri radikalizmlə mübarizə işində fəal iştirak etmirlər: "Bəzi qruplar öz şəxsi mənafeləri naminə, hətta cəmiyyətin gələcəyini təhlükə altına alaraq, insanları radikalizmə sürükləyən fəaliyyətə can atırlar. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, o cümlədən dövlətin digər müvafiq qurumları bu qruplara qarşı mübarizə aparmaqdadır, ancaq çox istərdik ki, dindarlarımızın, nüfuzlu din xadimlərimizin bu istiqamətdə fəaliyyəti, radikalizmə qarşı seçdikləri taktika daha güclü və daha effektli olsun. Bunun üçün, ilk növbədə, özünü və daha sonra digər insanları xurafatdan, mövhumatdan uzaq, saf dini biliklərlə maarifləndirmək mütləqdir".

Sonra qeydiyyat şəhadətnamələri almış dini icmaların sədrləri çıxış edərək dinə, dindarlara diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Qeyd olunub ki, rəhbərlik etdikləri dini icmalar gələcək fəaliyyətlərində dövlətçilik prinsipini əsas tutacaq və xalqımızın milli-mənəvi dəyərlərinə yad olan dini ideologiyaların ölkəmizə ayaq açmasının qarşısının alınmasında daha fəal iştirak edəcəklər.

**Ü.ƏSGƏROV**

# "Nar"ın dəstək olduğu "Brain Ring" bilik yarışının 7-ci mövsümü başa çatdı

## Bakı şəhərini təmsil edən "İçərişəhər" klubu mövsümün qalibi oldu

*"Brain Ring" intellektual müsabiqəsinin 7-ci mövsümü artıq başa çatdı. "Nar"ın ənənəvi olaraq dəstək olduğu bilik yarışına ölkənin 17 bölgəsi və 10 ali məktəbini təmsil edən 34 komanda qatıldı. Beş ay boyunca davam edən bilik mübarizəsindən sonra mövsümün qalibi Bakı şəhərini təmsil edən "İçərişəhər" klubu oldu. "Nar" bütün iştirakçıları və qalibləri bu uğurlu layihədə iştirak münasibəti ilə bir daha təbrik edir.*

nar

Qeyd edək ki, "Nar" gənclərin maarifləndirilməsinə və intellektual fərdlərin formalaşmasına yönələn layihələri özünün Korporativ Məsuliyyət Strategiyası (KSM) çərçivəsində dəstəkləməyə davam edəcəkdir. "Nar"ın korporativ məsuliyyət strategiyası haqqında ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

# Mehriban Abasquliyeva: "Tərəqqi yolumuz referendumdan keçir"




*"Referendum ideyasının irəli sürülməsi ilk öncə Azərbaycanın inkişafının daha da sürətlənməsinə hesablanmış mütərəqqi addımdır". Bu fikirləri "SƏS" qəzetinə Yeni Azərbaycan Partiyasının (YAP) Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva Prezident İlham Əliyevin Konstitusiya Aktı layihəsi barədə imzaladığı Sərəncama münasibət bildirərkən deyib.*

"Yeni və daha sürətli inkişaf mərhələsinin reallaşdırılması üçün konstitusiyadakı qanunlara müəyyən əlavə və dəyişikliklərin edilməsi zərurəti də bu ideyadan doğub", - deyə qeyd edən YAP rəsmisi, həmçinin xatırladıb ki, hələ bir neçə il öncə - 2009-cu ilin martında ehtiyac yarandığı üçün konstitusiyaya əlavə və dəyişikliklər edilib: "Xatırladım ki, hələ o zaman ali qanunvericiliyimizə 29 yeni maddə daxil edilmişdi. Hazırda isə təklif edilən əlavə və dəyişikliklər inkişaf dövrünün daha bir başlanğıcıdır".

M.Abasquliyeva bildirib ki, iqtidarla xalq arasında olan vəhdət də belə düşünməyə zəmin yaradır ki, xalqımız bu ideyanı tam olaraq dəstəkləyir: "Məhz Ulu Öndər Heydər Əliyevin yürütdüyü siyasət nəticəsində Azərbaycan bu gün güclü siyasət yürüdən, güclü iqtisadiyyata malik olan dövlətə çevrilib. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu baxımdan, hesab edirəm ki, Azərbaycan xalqı müdrik, dəyərli, qiymət verə bilən xalqdır və təklif olunmuş əlavə və dəyişikliklərə düzgün qiymət verə biləcək və ali qanunda əksini tapması üçün Referendumu dəstəkləyəcək".

YAP Sabunçu rayon təşkilatının sədri, həmçinin onu da bildirib ki, bu gün ölkədəki uğurları və əldə edilən nailiyyətləri gözü götürməyən, özlərini müxalifətçi hesab edən radikallar referendum ideyasına qarşı çıxmağa cəhd edirlər və əsassız şəkildə ittihamlar irəli sürürlər, bu əlavə və dəyişikliklərin konstitusiyada əksini tapmasının əleyhinə çıxış edirlər: "Baxın, müstəqillik tarixi uzun illərə söykənən ən aparıcı dövlətlərdə belə konstitusiyalar dəfələrlə dəyişdirilib, əlavələr olunub və s. Bunu anlamayan radikallar hər dəfə önəmli proseslər ərəfəsində özlərini ortaya atıb düşüncəsizliklərini sərgiləyirlər. Ancaq onları qəbul edən yoxdur. Azərbaycan öz mütərəqqi yolunu tutub və ölkəmizi, xalqımızı bu yoldan heç bir fərqli qüvvə döndərə bilməz. Biz bir ali məqsədə doğru - inkişafa, tərəqqiyə tərəf inamla addımlayırıq, bu yolumuz isə növbəti referendumdan keçir".

**R.HÜSEYNOVA**

# Bilik Fondunda Koordinasiya Şurası Hüquqi maarifləndirmə bölməsinin iclası keçirilib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 18 iyul 2016-cı ildə "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsinin rəy verilməsi üçün Konstitusiya Məhkəməsinə təqdim edilməsi haqqında Sərəncam imzalayıb.*



Layihədə Konstitusiyanın 29 maddəsində əlavə və dəyişiklik təklif olunur. Bu əlavə - dəyişikliklər özündə insan haqları, seçki qanunvericiliyi və hakimiyyət strukturlarının fəaliyyət qaydalarını əks etdirir. Referendum Aktı Konstitusiya Məhkəməsi tərəfindən təsdiqləndikdən sonra əhalinin maarifləndirilməsinə ehtiyac olacaq. Bunu nəzərə alan Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu iyulun 21-də Koordinasiya Şurasının Hüquqi maarifləndirmə bölməsinin üzvləri olan hüquqşünas alimlərlə "Dəyirmi masa" təşkil edib.

Bilik Fondunun aparat rəhbəri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyevin moderatorluğu ilə keçirilən "Dəyirmi masa"da Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktı layihəsi ilə bağlı Bilik Fondunun qarşısında duran vəzifələr müzakirə olunub.

Tədbirdə Fondun Koordinasiya Şurası Hüquqi maarifləndirmə bölməsinin üzvləri - AMEA-nın əməkdaşı, hüquq üzrə fəsəfə doktoru Rauf Qarayev, Azərbaycan Respublikasının Prerzidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, hüquq üzrə fəlsəfə doktoru Fəxrəddin Nağıyev, Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının əməkdaşı, hüquq üzrə fəlsəfə doktoru Elşad Nəsirov, AMEA-nın əməkdaşı, hüquq üzrə elmlər doktoru Nazim Əliyev, Azərbaycan Respublikası DİN Polis Akademiyası Daxili İşlər orqanlarında inzibati fəaliyyət kafedrasının baş müəllimi, hüquq üzrə fəlsəfə doktoru Rafiq Nəcəfquliyev, AMEA-nın əməkdaşı, hüquq üzrə elmlər doktoru Zaur Məmmədov çıxış edərək, Referendum Aktı layihəsinə təklif edilən əlavə və dəyişikliklərin hansı zərurətdən yarandığına diqqət çəkiblər.

Müzakirələr nəticəsində qərara alınıb ki, Referendum Aktı layihəsinə təklif olunan əlavə və dəyişikliklərin mahiyyətinin izahı ilə bağlı yerlərdə mühazirələr, görüşlər, "Dəyirmi masalar" keçirilir, maarifləndirici broşurlar hazırlansın. Bilik Fondu bununla bağlı silsilə maarifləndirici tədbirlərin və mütəxəssislərin əhali ilə görüşlərinin təşkili işini öz üzərinə götürüb.

**NƏZAKƏT**

# Müsavat növbəti qalmaqalını saldı

*Arif Hacılı: "Rəsul Quliyev, Lalə Şövkət kimi siyasilərin heç bir faydası yoxdur"*

***Bütün dövrlərdəki acı seçki məğlubiyyətlərindən sonra bir-birilərni xəyanətlərdə, uğursuzluqda günahlandıran ənənəvi müxalifət "liderləri" həmin vasitələrlə özlərini təmizə çıxarmağa, məğlub kimi əsl səbəbkar olmadıqlarını nümayiş etdirməyə çalışırlar. Əlbəttə ki, bu kimi vasitələrlə növbəti seçkilərə qədər ayaqda qalmağa cəhd edən partiyalar, əslində cəmiyyətdə heç bir nüfuz əldə edə bilmirlər.***

Bu səbəbdən də, bir-birilərini ittiham etməklə işlərini bitmiş hesab edirlər. Buna misal kimi "Milli Şura" yaradılarkən, az qala dünyanın ən "monolit" və "möhtəşəm" müxalifət birliyi qismində təqdim olan siyasi təşkilat "liderləri"nin qurumla bağlı pafoslu bəyanatlarını xatırlamaq olar. Ancaq həmin bəyanatların bu gün tamamilə tərs istiqamətdə yer alması bir daha belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq "Milli Şura" adlı qurum yox səviyyəsindədir.



**"Bizə şübhəli keçmişi olan hay-küylü adların yox, real fayda gətirənlərin birliyi lazımdır"**

Bu arada məğlubiyyət günahlarını digər partiya "liderləri"nə - keçmiş eks-spiker Rəsul Quliyevə və ALP "lideri" Lalə Şövkət Hacıyevaya minnət tonunda ünvanlayan Müsavat başqanı Arif Hacılı öz ittihamlarında bildirib ki, belə fərdlərlə əməkdaşlıq etmək səmərəsizliklə nəticələnib. A.Hacılı bildirib ki, Müsavat partiyası zamanında çox güzəştlərə gedib: "...Amma heç zaman bu güzəştlərdən fayda görmədik. Bizim zaman-zaman R.Quliyev, L.Şövkət kimi siyasilərlə işbirliyimiz nə demokratik düşərgəyə, nə də Azərbaycana fayda gətirmədi...Bizə şübhəli keçmişi olan hay-küylü adların yox, real fayda gətirənlərin birliyi lazımdır..."

A.Hacılının minnət və ittihamlar fonunda L.Ş.Hacıyeva ilə R.Quliyevi şübhəli keçmişdə günahlandırması istər-istəməz belə bir sual yaradır - Əgər Müsavat rəhbərliyi hər iki şəxsin şübhəli keçmişlərindən xəbərdar idisə, nəyə görə "Milli Şura" təsis olunarkən "liderləri" həmin quruma dəvət edərək onlarla əməkdaşlıq etdilər? Məgər həmin vaxt onların şübhəli keçmişləri yox idimi?

Məhz bütün bunlardan sonra ittiham atəşinə tutulan R.Quliyev və L.Şövkət son vaxtlar Müsavat partiyasının hədəfinə tuş gəlməyə başlayıb. Ancaq görünən budur ki, sonradan atılan daş topuğa dəyər. Necə ki, A.Hacılı hələ də öz günahlarını başqalarının üzərinə atmağa cəhd edir. Görünür, Rəsul-Arif qarşıdurması hələ çox mətləbləri üzə çıxaracaq.

***Rəfiqə HÜSEYNOVA***

## AXCP paytaxtda pulsuz dönər paylayacaq-BİABIRÇILIQ!

***AXCP zaman-zaman yersiz, heç bir məntiqə sığmayan addımları ilə gündəmdə qalmağa çalışıb. Yadınızdadırsa, 2006-cı ildə AXCP-nin yaradılmasının növbəti ildönümündə Əli Kərimli cəbhəçilərə 2 manatlıq kontur paylayıb. AXCP sədri bu dəfə də fərqli, eyni zamanda gülünc bir üsula əl atıb. Belə ki, Ə.Kərimli AXCP-nin 27 illiyi münasibətilə paytaxtın Nizami (keçmiş Tarqovı) küçəsində pulsuz dönər və şaurma paylamaq qərarına gəlib.***

"SƏS"-ə daxil olan məlumata görə, bununla bağlı cəbhəçilər sosial şəbəkədə event yaradıblar. Sosial şəbəkədə Kazım Alibekovun yaratdığı eventi olduğu kimi oxucularımıza çatdırırıq: "AXCP-nin 27 illiyi münasibəti ilə havayı dönər və şaurma paylayırıq. Dinindən, irqindən, cinsindən, bioloji yaşından, İQ-sindən, Pokemon Go oynayıb-oynamamasından və siyasi dünyagörüşlərindən asılı olmayaraq, Bakıda qalan bütün dost-tanışlarınıza deyin. Hamıya çatacaq qədər dönər və şaurma hazılayacağıq. Keçən dəfə Ramazan bayramında olduğu kimi. Elə bilin ehsandır. Gəlmək istəyənlər eventə qoşulsunlar. Şənbə günü axşam qoşulan şəxslərə şifrə sözü deyəcəyik. Həmin gizli sözdən istifadə edərək havayı dönərlərinizi və şaurmalarınızı alacaqsınız".

Qeyd edək ki, cəbhəçilərin növbəti yersiz aksiya şouları sosial şəbəkələrdə lağ obyektinə çevrilib.

Belə görünür ki, AXCP 27 illiyini "yüksək səviyyə"də qeyd edəcək. Tarix boyu bütün partiya və siyasi təşkilatların yubileyləri irimiqyaslı tədbirlərlə qeyd olunub. Şübhəsiz ki, heç bir sosial bazası olmayan AXCP-nin bayram tədbirləri münasibətilə Ə.Kərimlinin dönər paylama "taktikası" gülünc bir hadisə kimi yadda qalacaq. Pulsuz dönər paylamaqla özünə tərəfdar yığa biləcəyini zənn edən Ə.Kərimlini bu addımı atmağa vadar edən əsas səbəb səriştəsizliyi, məsuliyyətsizliyi və fəaliyyətsizliyidir. Siyasi səhnədə qalmağın yeni "üsulu"nu tapdığına görə, Avropa Ə.Kərimlini mütləq alqışlayacaq.

***Samir***

## Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində monitorinq insidentsiz başa çatıb



ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 21-də Azərbaycan Respublikası Tərtər şəhərinin qərbindən keçən Azərbaycan və Ermənistan qoşunlarının qarşıdurma xəttində monitorinq insidentsiz başa çatıb. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

## Almaniya DİN: Terrorçuların hədəfindəyik



Almaniya Daxili İşlər Nazirliyinin nümayəndəsi "DW" nəşrinə müsahibəsində Əfqanıstandan olan 17 yaşlı qaçqının Vürtsburq şəhərində elektrik qatarında sərnişinlərə hücumundan sonra ölkədə terror təhlükəsi ilə bağlı ümumi vəziyyəti şərh edərək deyib: "Almaniyanın təhlükəyə prinsipial münasibəti dəyişməyib". Onun sözlərinə görə, Almaniyanın artıq çoxdan terrorçuların hədəfində olması məlum məsələdir. Üstəlik, kiçik qruplar və ya təkbaşına hərəkət edən terrorçular tərəfindən də hücumlar gözlənilir. Vətəndaşların müdafiəsi üçün görülən tədbirlərin təfərrüatı isə həmişəki kimi açıqlanmayıb.

## Fransada fövqəladə vəziyyət daha 6 ay davam edəcək

İyulun 20-də Fransa Senatı ölkə ərazisində fövqəladə vəziyyət rejimin daha 6 ay - 2017-ci ilin yanvarınadək uzatmağı qərara alıb. "Lefigaro.fr" saytı xəbər verir ki, Senatdan əvvəl Milli Assambleya da böyük səs çoxluğu ilə fövqəladə vəziyyətin uzadılması təklifini dəstəkləmişdi. Bu gün sənəd yekun səsvermə üçün hər iki palataya göndəriləcək.



# "Liderlər"in şişirdilmiş "siyasətləri" imitasiyadan başqa heç bir obrazı canlandırmır

*Bu faktor özünü dəfələrlə sübuta yetirib...*

***Müxalifətin siyasi mənfəət, yaxud siyasi dividend axtarışlarından doğan tərzlərinə nəzər salarkən, bir daha bəlli olur ki, əslində, bu kimi davranışlar arxasında şişirdilmiş "siyasət" motivi normal düşüncəli cəmiyyət arasında daha çox nəzərə çarpır.***

Söz yox ki, vətəndaş cəmiyyətinin quruculuğunda müxalifətçilik amilinin dayanması həm də demokratik plüralizmin göstəricisidir. Yəni normal, sivil dəyərlərə əsaslanan, məntiqi siyasi gedişlər edən müxalifətçiliyin bir müddətdən sonra iqtidarda olmaq şansları hər zaman mövcud olub. Bunu



müasir dünyanın siyasi həyatında cərəyan edən hadisələrdən də görmək mümkündür. Xüsusilə, Qərb ölkələrində bu kimi tendensiyalara daha çox rast gəlinir.

### Ucuz populizm xətti

Elə də uzağa getməyərək, bir neçə il öncə bəzi postsovet ölkələri məkanında baş verən siyasi mühiti bir daha xatırlada bilərik. Gürcüstanda və Ukraynada müxalifətçiliyin tamamilə başqa istiqamətdə olduğunu görərik. Düzdür, bu ölkələrdə müxalifətçilər müəyyən yollarla hakimiyyətə gəlsələr də, sonradan siyasi üstünlüyü ələ alanların heç də ölkəni idarə etmək bacarıqlarının 100%-lik həddə olmadığının şahidi olarıq. Yəni onlarda da heç nə ideal deyil.

Azərbaycan müxalifətinin, xüsusilə özlərini "ənənəvi müxalifətin liderləri" adlandıran fərdlərin bu və ya digər şəkildə ən kiçik hadisələrə belə, dar düşüncə müstəvisində yanaşma xətti tutmaları özündə ucuz populizmdən başqa heç nəyi əks etdirmir. Bu kimi olaylara bir çox məsələləri aid etmək mümkündür.

### Ani baxış dəyişiklikləri

Onu da xatırlatmaq olar ki, bir vaxtlar AXCP və Müsavat kimi partiyalar keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevi, keçmiş səhiyyə naziri Əli İnsanovu, demək olar ki, buraxılışlarında, mütəmadi olaraq müxtəlif məsələlərdə ittiham edir, onların fəaliyyətlərini tənqid atəşinə tuturdular. Ancaq həmin adamların məlum dövləti cinayət əməlləri faş olduqdan sonra, sözügedən mətbuatın onlara qarşı baxışları anidən dəyişikliyə məruz qaldı. Nəticədə, həm F.Əliyev, həm də Ə.İnsanov nədənsə radikal müxalifətin "qəhrəmanlıq obrazlarına" çevrildilər və əlbəttə ki, belə gedişlərin arxasında adları çəkilən mətbuata, bilavasitə nəzarət edən AXCP sədri Ə.Kərimlinin, eləcə də, Müsavatın sabiq başqanı İ.Qəmbərin siyasi mənfəət güdmələri dayanmışdı. Bu gün də həmin şişirdilmiş "siyasət" "liderlər" tərəfindən yürüdülməkdədir.

Məhz bu xüsusda, ictimaiyyətə "ənənəvi müxalifət" kimi sırınmağa cəhdlər edən, lakin həmin cəhdlərində daim rəzillik və cılızlıq təsiri bağışlayan "liderlər"in şişirdilmiş "siyasətləri" imitasiyadan başqa heç bir obrazı canlandırmır. Belə müxalifətin isə iqtidara gəlmək şansı bütün hesablamalar çərçivəsində, əlbəttə ki, sıfıra bərabərdir. Bu faktor artıq özünü dəfələrlə sübuta yetirib.

***Afət TAHİRQIZI***

# YENİ AVROPA ÜÇÜN PARİS XARTİYASI - İNSAN HÜQUQU, DEMOKRATİYA VƏ QANUNUN ALİLİYİ

Biz ölkələrimizdə yeganə idarəetmə sistemi kimi demokratiyanı qurmağı, birləşdirməyi və möhkəmləndirməyi öz öhdəmizə götürürük. Bu təşəbbüsdə biz aşağıdakıları əldə rəhbər tutacağıq:

İnsan hüququ və əsas azadlıqlar doğuluşdan bütün insanlara məxsusdur, onlar ayrılmazdır və onlara qanunla təminat verilir. Onları müdafiə etmək və onlara kömək etmək hökumətlərin ən birinci vəzifəsidir. Onlara hörmət hədsiz hakimiyyəti olan dövlətə qarşı çox mühüm təminatdır. Onlara əməl etmə və onlan tam həyata keçirmə - azadlığın, ədalətin və sülhün əsasıdır.

Demokratik idarəetmə müntəzəm olaraq azad və ədalətli seçkilərin gedişində ifadə olunan xalq iradəsinə əsaslanır. İnsan şəxsiyyətinə və qanunun aliliyinə hörmət demokratiyanın əsasını təşkil edir. Demokratiya öz fikrini ifadəetmə azadlığının, cəmiyyətdə bütün qruplara dözümlülük göstərilməsinin və hər bir insan üçün imkan bərabərliyinin ən yaxşı təminatıdır.

Nüfuzlu və plüralist xarakterə malik demokratiya seçicilərə hesabat verilməsinə, dövlət hakimiyyəti orqanlarının qanuna və ədalət mühakiməsinin qərəzsiz həyata keçirilməsinə əməl etmək öhdəliyini doğurur. Heç kəs qanundan yuxarıda durmamalıdır.

Biz, hər bir insanın heç bir ayrıseçkilik qoyulmadan aşağıdakı hüquqlara malik olduğunu təsdiq edirik:

- fikir, vicdan, din və əqidə azadlığı;

- öz fikrini ifadə etmə azadlığı;

- assosiasiyalar yaratmaq və dinc yığıncaqlar keçirmək azadlığı;

- yerdəyişmə azadlığı;

heç kəs:

- əsassız həbsə, yaxud həbsdə saxlanmağa məruz qalmayacaq;

- işgəncəyə, yaxud amansız, qeyri-insani və insan ləyaqətini alçaldan rəftara və cəzanın başqa bir növünə məruz qalmayacaq;

hər kəsin, həmçinin aşağıdakı hüquqları var:

- öz hüququnu bilmək və ona uyğun hərəkət etmək;

- azad və ədalətli seçkilərdə iştirak etmək;

- cinayət etməkdə ittiham irəli sürdükdə, ədalətli və açıq məhkəmə araşdırmalarının aparılması;

- təkbaşına, yaxud başqaları ilə mülkiyyət sahibi olmaq və fərdi sahibkarlıqla məşğul olmaq;

- öz iqtisadi, sosial və mədəni hüquqlarından istifadə etmək.

Biz milli azlıqların etnik, mədəni, dil və din özünəməxsusluğunun müdafiə ediləcəyini, milli azlıqlara mənsub şəxslərin bu özünəməxsusluqları heç bir ayrı-seçkiliyə məruz qalmadan və qanun qarşısında tam bərabərlik şəraitində azad surətdə ifadə etmək, qoruyub-saxlamaq və inkişaf etdirmək hüquqlarına malik olduqlarını təsdiq edirik.

Biz hər kəsin hüququnun istənilən pozuntusuna qarşı onun milli, yaxud beynəlxalq hüquqi müdafiəsinin təsirli vasitələrinə yol tapıb onlardan istifadəsini təmin edəcəyik.

Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirənin 38 iştirakçı dövləti tərəfindən 1991-ci il oktyabrın 3-də qəbul edilmiş Moskva Müşavirəsinin sənədlərində göstərilir ki, iştirakçı dövlətlər fövqəladə vəziyyət şəraitində insan hüquqlarını və əsas azadlıqlarını qorumağı, Kopenhagen Müşavirəsi sənədinin müddəalarını nəzərə almağı və tərəfləri olduqları beynəlxalq konvensiyalara əməl etməyi mühüm sayırlar.

28.7. İştirakçı dövlətlər iştirakçıları olduqları beynəlxalq konvensiyalara uyğun olaraq, öhdəliklərdən istənilən bir geriçəkilmədən imtina etməyə çalışacaqlar; belə geriçəkilmə fövqəladə vəziyyət şəraitində mümkündür. Həmin öhdəliklərdən geriçəkilmə tədbirləri bu sənədlərdə təsbit edilən prosessual tələblərə ciddi şəkildə uyğun görülməlidir. Belə tədbirlər konkret şəraitdə lazım olduğundan artıq kəskinləşəcək, nə də qüvvədə qalacaq; onlar öz xarakterinə görə, müstəsna tədbirlərdir və məhdud şəkildə şərh və tətbiq edilməlidir. Belə tədbirlər yalnız irq, dərinin rəngi, cins, dil, din, sosial mənşə və ya azlıqlara mənsubiyyət əlamətinə görə müəyyənləşən ayrıseçkiliyə gətirib çıxarmayacaqdır.

37. İştirakçı dövlətlər, milli azlıqların problemlərinə və bu azlıqlara mənsub şəxslərin hüquqlarına aid ATƏM-in bütün sənədlərində, xüsusilə, ATƏM-in İnsan Ölçüsü Konfransına dair Kopenhagen müşavirəsinin sənədində və ATƏM ekspertlərinin milli azlıqlar məsələsinə dair Cenevrə Müşavirəsinin Məruzəsində müddəa və öhdəlikləri təsdiq edirlər, onların tam və tezliklə yerinə yetirilməsinə çağırırlar. Onlar ATƏM-in yeni və geniş mexanizm və proseduralarının tətbiq edilməsinin milli azlıqlara mənsub şəxslərin hüquqlarının gələcək müdafiəsinə və təşviqinə kömək edəcəyini güman edirlər.

38. İştirakçı dövlətlər, bu iştirakçı dövlətlərdə qanuni yaşayan mühacir zəhmətkeşlərin və onların ailələrinin hüquqlarına hörmətlə yanaşmanın təmin edilməsinin, onların milli, mədəni, dini və dil xüsusiyyətlərini azad surətdə ifadə etmək hüququnun xüsusi qeyd edilməsinin zəruriliyini qəbul edirlər. Bu hüquqlar yalnız qanunla müəyyən edilən və beynəlxalq standartlara uyğun gələn məhdudlaşdırmalar ilə həyata keçirilə bilər.

38.1 - Onlar irq, dərinin rəngi və etnik mənşə əlamətlərinə, mühacir zəhmətkeşlər barəsində dözümsüzlüyə və ksenofobiyaya görə bütün ayrıseçkilik hərəkətlərini mühakimə edirlər. Onlar milli dövlət qanunvericiliyinə və beynəlxalq öhdəliklərə uyğun dözümlülüyü, anlaşmanı, imkanlar bərabərliyini və mühacir zəhmətkeşlərin əsas insan hüquqlarına hörmət edilməsini təşviq etmək üçün təsirli tədbirlər görəcəklər; milli, irqi, etnik və ya dini ayrı-seçkiliyə, düşmənçiliyə və ya nifrətə əsaslanan və zorakılığa təhrikçilik aktlarını yasaq edən tədbirləri, hələlik görməyiblərsə, görəcəklər.

Dəyişikliklər Dövrünün Çağırışı (Çıxarış) Helsinki Zirvə Görüşünün Bəyannaməsi

II Milli Azlıqların İşləri Üzrə ATƏM-in Ali Komissarı:

1) İştirakçı dövlətlər milli azlıqların işləri üzrə Ali Komissar vəzifəsini təsis etmək haqqında qərar qəbul edirlər.

Mandat

2) Ali Komissar KSDL-in nəzdində fəaliyyət göstərəcək və beləliklə də, münaqişələrin qarşısının mümkün qədər ən erkən mərhələdə alınmasına kömək edəcəkdir.

3) Ali Komissar "erkən qabaqlama"nı, müvafiq hallarda isə milli azlıqların problemləri ilə bağlı olan və erkən qabaqlama mərhələsindən, hələlik çıxmayan, ancaq Ali Komissarın mülahizəsinə görə, ATƏM bölgəsində sülhə, sabitliyə, yaxud iştirakçı dövlətlər arasındakı münasibətlərə toxunan potensial münaqişəyə çevrilə bilən və şuranın, yaxud KSDL-in diqqət və təsirlərini tələb edən gərgin vəziyyətlər barəsində "təcili hərəkətlər"i mümkün qədər erkən mərhələdə təmin edəcəkdir.

4) Ali Komissar ATƏM-də qəbul edilmiş prinsip və öhdəliklərinə əsaslanan bu mandat çərçivəsində işi məxfi aparacaq və bilavasitə, belə gərgin vəziyyətlərə cəlb edilmiş bütün tərəflərdən asılı olmayaraq hərəkət edəcəkdir.

(5a) Ali Komissar vətəndaşı olduğu dövlətdə, yaxud daimi yaşadığı ərazidə milli azlıqlarla bağlı yaranan; mənsub olduğu milli azlıqlara toxunan problemlərə, haqqında söhbət gedən dövlət də daxil olmaqla, bilavasitə, əlaqəli bütün tərəflərin yalnız razılığı olduqda baxacaqdır.

(5b) Ali Komissar mütəşəkkil terrorçuluq hərəkətləri ilə bağlı olan vəziyyətlərdə milli azlıqların məsələsinə baxmayacaqdır.

(5c) Ali Komissar həmçinin, bu və ya digər milli azlıqlara mənsub şəxslər barəsində ATƏM üzrə öhdəliklərin pozulmasına baxmayacaqdır.

(6) Bu və ya digər vəziyyət gözdən keçirilərkən onu yoluna qoymaq məqsədilə Ali Komissar demokratik və beynəlxalq vasitələrin mövcudluğunu, eləcə də, əlaqədar tərəflərin onlardan istifadə etməsini tam ölçüdə nəzərə alacaqdır.

(7) milli azlıqlara dair konkret məsələ KSDL-in nəzərinə çatdırıldığı hallarda Ali Komissarın həmin məsələnin baxılmasına qoşulması üçün KSDL-dən müvafiq xahiş ilə mandat tələb olunur.

Erkən qabaqlama

(11) Ali Komissar:

(11a) milli azlıqların məsələləri üzrə məlumatı haqqında aşağıda (Əlavənin (23) - (25) bəndlərinə bax) danışılan qaynaqlardan toplayacaq və alacaq;

(11b) mümkün qədər ən erkən mərhələdə, bilavasitə maraqlı tərəflərin roluna, gərginliyin xarakterinə və onunla bağlı son hadisələrə, həmçinin, mümkün olduqda, ATƏM bölgəsində sülh və sabitlik üçün potensial nəticələrə qiymət verilməsini həyata keçirəcək;

(11c) bu məqsədlə, milli azlıqların durumuna dair qaynaqdan məlumat almaq üçün (17)-ci bəndə və Əlavənin (27) - (30)-cu bəndlərinə uyğun olaraq, iştirakçı dövlətlərdən hər hansı birinə gəlmək və (25)-ci bəndin müddəalarını nəzərə almaqla, bilavasitə maraqlı tərəflərlə şəxsən əlaqəyə girmək imkanına malik olacaqdır.

(12) İştirakçı dövlətə gəldiyi zaman, bilavasitə iştirakçıların özlərindən məlumat alarkən Ali Komissar tərəflərlə müvafiq məsələlər müzakirə edə bilər və zəruri halda isə tərəflərin arasında dialoqa, etimad və əməkdaşlığın möhkəmlənməsinə köməklik göstərə bilər.

Erkən qabaqlamanın təmin edilməsi

(13) Müvafiq tərəflərlə məlumat mübadiləsi və əlaqələr əsasında Ali Komissar potensial münaqişə təhlükəsinin mövcudluğu ((3)-cü bənddə ifadə edildiyi kimi) nəticəsinə gələrsə, o fəaliyyətdə olan Sədr tərəfindən operativ surətdə KSDL-yə verilən erkən qabaqlama ilə çıxış edə bilər.

(14) Fəaliyyətdə olan Sədr bu erkən qabaqlamanı KSDL-in sonrakı görüşünün gündəliyinə daxil edir. Dövlətlərdən hər hansı biri belə qabaqlamanın operativ surətdə məsləhətləşməni tələb etdiyi qərarına gələrsə, o, Şuranın Berlin görüşü nəticələrinin Xülasəsinin 2-ci Əlavəsində ("Fövqəladə mexanizm") ifadə edilən proseduraya müraciət edə bilər.

(15) Ali Komissar erkən qabaqlamaya müraciətinin səbəblərini KSDL-ə izah edir.

Təcili hərəkətlər

(16) Ali Komissar KSDL tərəfindən təsdiq edilən mandata uyğun olaraq mümkün həllərin axtarılması məqsədilə maraqlı tərəflərlə gələcək əlaqələri qurmaq və daha ətraflı məsləhətləşmələr aparmaq üçün ona səlahiyyət verilməsini məsləhət görə bilər. KSDL müvafiq qərar qəbul edə bilər.

(17) Milli azlıqlarla bağlı gərgin vəziyyəti müzakirə etmək məqsədilə iştirakçı dövlətlərdən hər hansı birinə səfərə çıxana qədər Ali Komissar fəaliyyətdə olan Sədr ilə məsləhətləşmə aparır. Fəaliyyətdə olan Sədr müvafiq iştirakçı dövlət (dövlətlər) ilə məxfi qaydada məsləhətləşir, həmçinin daha geniş məsləhətləşmə apara bilər.

(18) Ali Komissar iştirakçı dövlətə səfərdən sonra müəyyən edilən faktlar və həmin konkret məsələlərin həlli üzrə işin gedişi haqqında fəaliyyətdə olan Sədrə çox məxfi hesabat təqdim edir.

(19) Ali Komissar bu və ya digər konkret məsələ üzərində işini bitirdikdən sonra müəyyənləşdirdiyi faktlar, nəticələr və yekunlar haqqında fəaliyyətdə olan Sədrə hesabat verir. Fəaliyyətdə olan Sədr bir ay ərzində müəyyən edilmiş faktlar, nəticələr və yekunlar barəsində müvafiq dövlətlə (dövlətlərlə) məxfi qaydada məsləhətləşmə aparır, eləcə də daha geniş məsləhətləşmə keçirə bilər. Bundan sonra mümkün qeydlərlə birlikdə hesabat KSDL-ə veriləcəkdir.

(20) Ali Komissar vəziyyətin münaqişəyə çevrildiyi nəticəsinə gələrsə və onun səy göstərmə planında imkanının tükəndiyini hesab edərsə, o, bu haqda fəaliyyətdə olan Sədr vasitəsilə KSDL-ə məlumat verir.

(21) KSDL bu və ya digər konkret məsələnin baxılmasına qoşulduqda, Ali Komissar KSDL-ə, yaxud bu sənədin III fəslinin müddəalarına uyğun olaraq KSDL-in həmin gərgin vəziyyət və ya münaqişə ilə bağlı addımlar atmağı təklif edə biləcəyi hər hansı digər idarə və ya təşkilata məlumat, həmçinin sorğu üzrə tövsiyə təqdim edir.

(22) Ali Komissar KSDL tərəfindən müvafiq xahiş olduqda və onun mandatının həyata keçirilməsinin məxfiliyinə dair tələbləri lazımi tərzdə nəzərə almaqla insan ölçüsü məsələsinin yerinə yetirilməsinin müzakirəsinə həsr olunmuş ATƏM-in müşavirələrinə öz fəaliyyəti haqqında məlumat təqdim edəcəkdir.

Əlavə

Milli azlıqlar məsələsinə dair məlumatların qaynaqları

(23) Ali Komissar:

(23a) milli azlıqların durumu və ona aidiyyəti olan tərəflərin rolu haqqında, istənilən qaynaqdan, o cümlədən, (25)-ci bənddə göstərilənlər istisna olmaqla, kütləvi informasiya vasitələrindən və qeyri-hökumət təşkilatlarından məlumat toplaya və ala bilər;

(23b) milli azlıqlar məsələsi ilə bağlı hadisələr haqqında bilavasitə aidiyyəti olan tərəflərdən konkret məruzələr ala bilər. Milli azlıqlar barəsində ATƏM-in öhdəliklərinin pozulması, eləcə də, milli azlıqlar məsələsiylə bağlı digər pozuntular haqqında məruzələr də onların sırasına daxil ola bilər.

Bilavasitə, maraqlı tərəflər

(26) Gərgin vəziyyətə cəlb edilən, Ali Komissara konkret məruzələr təqdim edə bilən və iştirakçı dövlətə səfər zamanı Ali Komissarın şəxsən əlaqəyə girməyə çalışacağı maraqlı tərəflər aşağıdakılardır:

(26a) müvafiq hallarda, milli azlıqların yaşadığı rayonlarda regional və yerli hakimiyyətlər də daxil olmaqla, iştirakçı dövlətlərin hökumətləri.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 22 iyul

## İtaliyalı professorlar: Qəhvə iç, xərçəngdən uzaq ol

İtaliyanın Milano Universitetinin professorlarının apardıqları araşdırma nəticəsində məlum olub ki, gündə 3 fincan qəhvə içən adamların qaraciyər xərçənginə tutulma ehtimalları digərlərinə nisbətən 50 faiz daha azdır. Araşdırmada qəhvənin qaraciyər serozu riskini azaltdığı da məlum olub. Araşdırmaların nəticələri "Clinical Gastroenterology and Hepatology" adlı jurnalda yayımlanıb. Araşdırmanı aparan professor Karlo La Vecchia jurnalistlərə verdiyi müsahibədə bildirib ki, qəhvə qaraciyər xərçəngini yaradan diabet xəstəliyinə qarşı da mübarizə aparır.

## Göyərti hüceyrələri xərçəngdən qoruyur

Amerika alimləri hesab edirlər ki, insanlar gün ərzində göy qurşağının rənglərinə uyğun olaraq 7 rəngdə məhsulla qidalanmalıdılar. Ən çox üstünlük isə göyərtiyə verilməlidir. Çünki o, antioksidantlarla zəngindir. Yəni hüceyrələri xərçəngin əmələ gəlməsinə şərait yaradan azad radikallardan qoruyur. Cəfərinin tərkibində çoxlu kalium, kalsium, dəmir, fosfor və C vitamini var. Orqanizmin immunitetini möhkəmləndirir, görmə qabiliyyətini, dərinin rəngini və vəziyyətini yaxşılaşdırır, həm də sidikqovucu effektə malikdir. Şüyüd C vitamini, kalium, dəmirlə zəngindir. Qanazlığı, hipertoniya, mədə-bağırsaq pozğunluqları kimi xəstəliklərdə faydalıdır. Keşniş B və PP qrup vitaminləri ilə zəngindir. Sinir sistemini stressdən qoruyur, dərini təravətləndirir, ürək və bağırsağın yaxşı işləməsinə kömək edir. Güclü antioksidantdır.

## Alimlər: İnsan həyatı boyu 75 min stəkan çay içir

Yemək və su istənilən insanın həyatında iki əvəzolunmaz şeydi. Alimlər müəyyənləşdirib ki, 70 il yaşayan insan 50 tondan çox ərzaq və 42 min litr maye qəbul edə bilir. 50 ton ərzaq isə aşağıdakılardır: 2 ton müxtəlif ət, həmçinin 70 min kotlet; 7 ton çörək, həmçinin 35 min bulka; 1 ton piy; 4 ton balıq delikatesi; 5 ton kartof; toyuq yumurtaları 5 000 ədədi; 500 kq duz. Bundan başqa insan təxminən 10 min şokolad yeyə bilər. Bunları bir-birinin üstünə qoysaq bu, 50 mərtəbəli evin hündürlüyünə bərabər olacaq. Bundan başqa, insan həyatı boyu 75 min fincan çay içir ki, bu da 10 Ostankino teleqülləsi hündürlüyünə bərabərdir.

## Şok iddia: Gec ailə quran qadınlar xəyanəti bağışlayır

Adnan Menderes Universitetinin tədqiqatçı-professor heyətinin apardığı araşdırma sübut edib ki, qadınların yaşı evlilikdəki xoşbəxtlikdə böyük rol oynayır. 34 cütlük üzərində aparılan araşdırma gec evlənən qadınların daha xoşbəxt olduqlarını göstərib. Üstəlik, 30 yaş civarında ailə quran qadınlar ailə içində yaranan problemi təkbaşına aradan qaldıra bilirlər. Bundan başqa, "Hansı halda evliliyinizi xilas etmək üçün mübarizə aprarsınız" sualına da qadınların 82 %-i "mütəmadi bir hal almadığı halda xəyanət belə olarsa, mübarizə apararam" deyib. Bu yaşda evlənən qadınlar işin içinə təzyiq, cinsi və fiziki zorakılıq girmədiyi müddətcə evliliyi davam etdirirlər.

## ELAN

Əliyev Nihat Heydər oğlunun adına olan Yasamal rayonu A.Dağlı küçəsi 52/54 qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Heydər Həsən oğluna Şamaxı rayonunda 08 iyun 2000-ci il tarixli 3m - IN - 121 saylı alqı-satqı müqaviləsi ilə satılmış torpaq sahəsinə aid dövlət aktı (JN: 459 Kod: 41017018) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Füruzə Əkbər qızına Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş çıxarış seriya MA № 0342296 (Şamaxı rayonu Çuxuryurd kəndi) itdiyi üçün etibarsız saylır.

## Sərbəst güləşçilərimiz komanda hesabında Avropa ikincisi olublar



İsveçin paytaxtı Stokholmda yeniyetmə güləşçilər arasında Avropa çempionatı keçirilir. AZƏRTAC xəbər verir ki, çempionatın ilk iki günündə sərbəst güləş üzrə yarışlar keçirilib və qaliblər müəyyənləşib. Yığma komandamızın üzvləri 1 qızıl, 3 gümüş və 7 bürünc medal qazanıblar. Qızıl medalı yığma komandamıza Mahir Məmmədzadə (42 kq) qazandırıb. Maqomedsalix Abakarov (42 kq), Djopua İnal (63 kq) və Rəşad Yusifli (76 kq) final görüşündə uduzaraq gümüş medala yiyələniblər. Bürünc medalları isə Əsgər Məmmədəliyev (46 kq), İntiqam Vəlizadə (50 kq), Sabutay Əmişov (54 kq), Qadjimurad Qadjiyev (63 kq), Abubakr Abakarov (69 kq), Əli Əminzadə və Asxab Həmzətov (hər ikisi 100 kq) qazanıblar. Bu nəticə ilə yığmamız çempionatı komanda hesabında Rusiyadan sonra ikinci pillədə tamamlayıb.

## "Qarabağ" Çempionlar Liqasında mərhələ adladı



Futbol üzrə UEFA Çempionlar Liqasında II təsnifat mərhələsinin cavab oyunları keçirilib. SİA xəbər verir ki, son Azərbaycan çempionu "Qarabağ" dünən növbəti matçına çıxıb. Ağdam təmsilçisi Lüksemburqda "Düdelanj"ın qonağı olub. Bakıda rəqibinə 2:0 hesabı ilə qalib gələn "Qarabağ" cavab qarşılaşmasında heç-heçə edib - 1:1. Bu nəticə ilə Ağdam klubu növbəti mərhələyə yüksəlib. Qeyd edək ki, "Qarabağ" III təsnifat mərhələsində Çexiyanın "Viktoriya" klubu ilə qarşılaşacaq. "Viktoriya" 1911-ci ildə Çexiyanın Plzen şəhərində yaradılmış futbol klubudur. Bir neçə dəfə adını dəyişən klub son olaraq 1993-cü ildən hazırki adını daşıyır. Komanda ev oyunlarını 11 min 722 tamaşaçı tutumu olan "Dusan Arena"da keçirir. "Qarabağ" klubu "Viktoriya" ilə ilk oyununu iyulun 26-da səfərdə, cavab matçını isə bir həftə sonra Tofiq Bəhramov adına Respublika stadionunda keçirəcək.

## "Kəpəz" Avroliqada mübarizəni dayandırdı

Futbol üzrə UEFA Avropa Liqasında II təsnifat mərhələsinin cavab oyunlarına start verilib. Qolaz-ın məlumatına görə, Azərbaycanın "Kəpəz" klubu dünən növbəti matçını keçirib. Gəncə təmsilçisi evdə Avstriyanın "Admira" klubunu sınağa çəkib. Səfərdə rəqibinə 0:1 hesabı ilə uduzan Şahin Diniyevin komandası cavab oyununda da məğlub olub - 0:2. Bununla da "Kəpəz" Avroliqada mübarizəni dayandırıb.

## "Real" 75 milyon avroluq təklifi rədd etdi



"Çelsi" "Real"ın futbolçusu Alvaro Moratanı transfer etmək istəyir. Qol.az-ın xarici KİV-lərə istinadən verdiyi məlumata görə, London təmsilçisi artıq bunun üçün İspaniya klubuna rəsmi təklif göndərib. Lakin Madrid təmsilçisi "Çelsi"nin 75 milyon avroluq təklifini rədd edib. Qeyd edək ki, "Real"la 2021-ci ilə qədər müqavilə imzalayan Morata "kral klubu"nda ilinə 6 milyon avro qazanacaq.

## "Liverpul" daha bir transfer gerçəkləşdirib

"Liverpul" futbol klubu yeni mövsüm öncəsi növbəti transferini gerçəkləşdirib. AZƏRTAC xəbər verir ki, İngiltərə təmsilçisi "Ausburq"un müdafiəçisi Raqnar Klavanı transfer edib. Estoniya millisinin futbolçusu ilə uzun müddətli müqavilə imzalanıb. Lakin sözləşmənin müddəti açıqlanmayıb. "Liverpul" bu transfer üçün "Ausburq"a 4 milyon funt ödəyib. Qeyd edək ki, "Liverpul" daha əvvəl Sadio Mane, Marko Qrujiç, Joel Matip və Loris Kariusu transfer edib.

## Dieqo "Fənərbaxça"dan getdi



İstanbulun "Fənərbaxça" futbol klubu braziliyalı futbolçusu Dieqo Ribasla yolları ayırıb. SİA xəbər verir ki, bu barədə İstanbul klubunun rəsmi saytı xəbər yayıb. Xəbərə görə, braziliyalı yarımmüdafiəçi ilə müqavilənin müddəti qarşılıqlı razılaşma əsasında ləğv edilib. Onun "Flamenqo" ilə müqavilə imzalayacağı gözlənilir.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500